# Novruz bayramına hələ 4 ay var

## Bakıdan İstanbula uçuş biletlərinin qiymətləri fantastikdir



**Novruz bayramı günlərində "Buta Airways" loukosteri ilə Bakıdan İstanbula uçuş biletlərinin qiymətləri sosial şəbəkələrdə müzakirələrə səbəb olub.**

4 ay sonraya - martın 20-21-i tarixlərinə Bakıdan İstanbula (Sabiha Gökçen) bilet almaq istəyənlər bir tərəf üçün 598.53 AZN ödəməlidirlər. Bu tarixlərdə gediş-dönüş isə 1000 AZN-dən yuxarı məbləğə başa gəlir. Həmçinin "Buta"da "standart" bilet 563.26 AZN, "budget" isə 545.66 AZN-dir.

(səh.2)



# Laçın dəhlizinə mütləq Azərbaycan nəzarət etməlidir

## Oradan gah silahlar, gah təxribatçı qrup, gah da texnika keçirilir

Milli Məclisin deputatı Fəzail Ağamalı parlamentin dünənki plenar iclasında çıxış edib. Parlament üzvü qeyd edib ki, Azərbaycan Laçın dəhlizində öz postunu yaratmalıdır...

(səh.5)


№ 221 (5742), 2022-ci il

Qiymәti 40 qәpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 3 dekabr 2022-ci il (şənbə)





# "Çırpınırdın Qara Dəniz"

## Azərbaycan türküsü Ərdoğanın 2023 seçkiləri üçün yenidən aranjeman edilib

**AK Partiya İstanbul İl Başçılığı sözləri Əhməd Cavada aid olan məşhur Azərbaycan türküsü "Çırpınırdın Qara Dəniz"- i Türkiyə Prezidenti Rəcəp Tayyip Ərdoğanın 2023 seçkiləri üçün yenidən aranjeman edilib.**

TurkicWorld-un məlumatına görə, bu barədə AK Partiyanın İstanbul İl sədri Osman Nuri Kabaktepe öz twitter hesabından paylaşım edib.

"Bu türkü bir xalqın liderinə olan sevgisinin adıdır", - deyə Kabaktepe paylaşımında bildirib.

Məlumata görə, mahnıya hazırlanan klip sosial şəbəkədə böyük rəğbət qazanıb.

*Qeyd edək ki, sosial şəbəkə istifadəçilərinin bir çoxu şərhlərdə Azərbaycanın Qarabağ qələbəsinə toxunaraq "Ay-ulduzlu qırmızı bayrağımız daha yüksəklərdə dalğalanacaq" kimi paylaşımlar edib.*

# "ABŞ və Rusiya sözünün üstündə durmadı"

## Çavuşoğlu: "Ona görə də biz əməliyyatı davam etdirməliyik və bu ərazini terror ünsüründən təmizləməliyik"



**Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu İtaliyanın paytaxtı Romada keçirilən 8-ci Aralıq dənizi Dialoq Forumunda iştirak edib.**

O, çıxışında dövlətlər arasında etimadsızlıq olduğunu söyləyib: "Yeni bir beynəlxalq sistemin doğulduğunun şahidi oluruq.

Əslində, belə bir sistemə ehtiyac yoxdur. Biz həqiqətən mühüm problemlər qarşısındayıq. Böhranlarla mübarizə aparmağa çalışırıq. Hazırda bir çox güc mərkəzləri var. Məsələn, texnologiya kifayət qədər inkişaf edib. Bu o deməkdir ki, dünyanın ərzaq ehtiyacları ödənilə bilər. Lakin ərzaq təhlükəsizliyi vacib məsələ olaraq qalır. Məhz bu səbəbdən iqlim dəyişikliyindən tutmuş enerji təhlükəsizliyinə qədər bir çox fərqli böhranlarla üzləşirik.

(səh.2)





# Mehriban Əliyeva Şəki səfəri ilə bağlı paylaşımlar edib

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin Şəki səfəri ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edib.**

*Paylaşımda deyilir:* "Şəkiyə gedərkən".

Mehriban Əliyeva Prezident İlham Əliyevin Şəki səfəri ilə bağlı rəsmi instaqram səhifəsində başqa bir paylaşım da edib.

*Paylaşımda deyilir:* "Şəki Xan məscidi kompleksində. 02.12.2022".

# Sülhə yeni pəncərə açılır

## Rusiya oyundan kənar vəziyyətə düşə bilər



**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Polşada Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cozef Borellə görüşüb.**

Görüş zamanı Azərbaycan və Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələləri, münasibətlərin gələcək perspektivləri, habelə energetika sahəsində əldə edilmiş razılıqların icrası müzakirə olunub.

(səh.3)

# "Azərbaycan ziyalısı şah kimi yaşamalıdır"

## Şahbaz Xuduoğlu: "Çingiz Abdullayev gedib Əlisa Nicatla maraqlansa kostyumunun üstünə tozmu qonar!?"





**"Qanun" Nəşrlər Evinin direktoru Şahbaz Xuduoğlu "Şərq" qəzetinə müsahibəsində yazıçı Əlisa Nicatın durumu ilə bağlı vəziyyətə aydınlıq gətirib:**

"Xırda yazı böyük dönüşə səbəb oldu. Gecə boyu onun kartına pul köçürüldü. Yardım edənlər bəzi halda qəbzlərini də mənə atırdılar. 1, 10, 20, 50, 100, hətta 200 manat yardım edən də vardı. Oğlu Üzeyirlə yardımların məbləğini öyrənmək üçün atasının kartını bankomata saldıq. Üzeyir gözlərinə inanmadı, "vay dədə, bu nədi ədə" dedi. 6987 manat yazılmışdı. Bu, yalnız bir gecədə toplanan məbləğdir. Mən bir anlıq qanadlandım".

(səh.4)



# Anası feysbuk səhifəsində yazdı

## Saakaşvili Gürcüstan siyasətini tərk edir

**Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili ölkənin siyasi həyatında iştirak etmək niyyətində deyil.**

Bu barədə Mixeil Saakaşvilinin anası Qiuli Alasaniyanın sabiq prezidentin feysbuk səhifəsində dərc olunan bəyanatında deyilir.

"Mixeil Saakaşvili ölkənin siyasi həyatında iştirak etmək niyyətində deyil və ədalətli qərara ümid bəsləyir", - deyə bəyanatda bildirilir. Qiuli Alasaniyanın sözlərinə görə, həbsxanada olan Mixeil Saakaşvili vəkillərinin iddiasına baxmayaraq, mümkün zəhərlənməsi ilə bağlı Gürcüstan hakimiyyətini günahlandırmır.

(səh.2)



# Bakıda ətin qiyməti yenə bahalaşacaq

## Yaxın zamanlarda fermerlər özləri şəhərə məhsul gətirməyəcək

**Paytaxtda ətin qiymətinin kəskin bahalaşması Milli Məclisdə də müzakirə predmeti olub.**

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında millət vəkili Elnur Allahverdiyev bölgələrlə müqayisədə paytaxtda ətin qiymətinin çox baha olmasından danışıb.

(səh.5)

# İt qorxusundan ölən uşaq...

## Stres bütün xəstəliklərin üzə çıxmasında, ağırlaşmasında böyük gücə malikdir



**"Qorxudan öləcəkdim" ...bu sözə gündəlik həyatımızda tez-tez rast gəlirik, amma mahiyyətinə önəm vermirik.**

Ətrafımızdakı insanların (bəzən elə özümüzün) keçirdiyi həyəcan və ya stres duyğusunu şişirtmək məqsədilə işlətdiyi adi bir ifadə kimi görürük. Amma heç də belə deyilmiş. Doğrudan da qorxudan ölmək olurmuş. Bəs necə?! 13 yaşlı Gültəkin kimi...

(səh.6)



# "Naxçıvanla bağlı erməninin öyrətdiyi adamlar fikir söyləyirlər"

## Siyavuş Novruzov: "Xahiş edirəm ki, bu məsələyə diqqətlə yanaşılsın, korrupsiya harada var, ora yoxlanılır"

(səh.4)



# Qərb "Vaqner"i terrorçu təşkilat kimi tanıyacaq

## Rusiya kəşfiyyatı tərəfindən idarə olunan bu qruplaşmaya qarşı ən ağır sanksiyalar tətbiq olunmalıdır

(səh.4)



# Prezident Şəki və Oğuz rayonuna gedib

## Dövlət başçısı bir sıra açılış mərasimlərində iştirak edib

**Dünən Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva Şəki rayonuna səfər ediblər. Dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.**

Daha sonra Prezident İlham Əliyev Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verib. Bildirilib ki, uzunluğu 47,2 kilometr olan yolun 7,5 kilometri 1-ci texniki dərəcəyə, 26,1 kilometri 2-ci texniki dərəcəyə, 13,6 kilometri isə 3-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Buraya Oğuz və Şəki şəhərlərinə giriş yollarının, həmçinin "Şəki dairəvi yolu"nun əsaslı şəkildə təmiri də daxildir. Qeyd edilib ki, layihə çərçivəsində yolboyu genişləndirmə işləri icra olunub, yolun köhnə asfalt örtüyü sökülüb, zəruri yerlərdə yararsız qrunt qazılaraq çıxarılıb, əks-dolğu işləri görülüb. Bundan başqa, zəruri yerlərdə müxtəlif diametrlərə malik 144 yeni dairəvi suötürücü boru quraşdırılıb, iki su keçidi və 11,6 kilometr uzunluğunda suaxıdıcı kanallar inşa edilib. Yola üç laydan ibarət yeni asfalt-beton örtüyü döşənib. Məlumat verilib ki, layihə çərçivəsində Zəyzidçay çayı üzərində yerləşən körpü istismar müddətini başa vurduğu üçün sökülüb, yerində 22 metr uzunluğunda yeni körpü inşa edilib. Daşağıl, Küngüt, Kiş, Qurcanaçay çayları üzərində yerləşən və ümumi uzunluğu 630 metr olan mövcud körpülər isə təmir olunub. Görülən işlərə paralel olaraq, zəruri yerlərdə 408 yol nişanı, 1731 siqnal dirəyi, 7 avtodayanacaq, 12,2 kilometr əyrixətli dəmir tir quraşdırılıb, yolcizgi və yolgöstərici xətlər, piyada zolaqları çəkilib. Qeyd edək ki, avtomobil yolunun yenidən qurulması ərazidə yaşayan əhalinin daha rahat gediş-gəlişini təmin edərək yük və sərnişin daşınmasını asanlaşdırmaqla iqtisadiyyatın daha da inkişafına müsbət təsir göstərəcək.

Daha sonra dövlət başçısı və birinci xanım Mehriban Əliyeva Şəkinin Orta Zəyzid kəndində "Green Factory" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) quru meyvə istehsalı müəssisəsində yaradılan şəraitlə tanış olublar. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov müəssisənin fəaliyyəti barədə dövlətimizin başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya məlumat verib. Bildirilib ki, müəssisənin 100 hektar bağ sahəsi var. Həmin ərazidə Fransa, İtaliya və Türkiyədən gətirilmiş 55 mindən çox meyvə ağacından, o cümlədən şaftalı, nektarin, ərik, gavalı, xurma, gilas, alma və alça meyvələrinin bir neçə növündən ibarət bağ salınıb. Diqqətə çatdırılıb ki, meyvə bağının suvarma suyu ilə təminatı üçün 8 artezian quyusu qazılıb, ümumi həcmi 15 min kubmetr olan su tutarları tikilib. Ərazinin fasiləsiz və səmərəli suvarılması məqsədilə 2 su nasosundan ibarət stansiya qurulub, müasir suvarma texnologiyalarının bütün texniki normalarına uyğun damcılama suvarma sistemi yaradılıb. Müəssisənin ərazisində logistik mərkəz fəaliyyət göstərir. Bu mərkəzə ümumi həcmi min kubmetr olan 9 soyuducu kamera, gündəlik istehsal gücü 3 ton olan qurutma, saatda 5 ton istehsal gücü olan çeşidləmə və qablaşdırma avadanlıqları, anbar binası, ofis və digər yardımçı binalar daxildir. Məlumat verilib ki, müəssisədə və bağ sahəsində 38 nəfər daimi, 120-150 nəfər mövsümi işçi çalışır. Ümumi dəyəri 7,5 milyon manat olan müəssisənin yaradılması üçün Sahibkarlığın İnkişafı Fondundan 2,5 milyon manat güzəştli kredit götürülüb.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olublar. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov bildirib ki, icra hakimiyyətinin yeni binası zirzəmi qatından və 4 mərtəbədən ibarətdir. Ümumi sahəsi 6080 kvadratmetr olan binada 56 yerlik konfrans zalı, 164 nəfərlik akt zalı və 70 nəfərlik yeməkxana yaradılıb. Həmçinin yeni binada hər cür şəraiti olan 90 iş otağı, kitabxana, muzey, sərgi və toplantı otaqları var. Zirzəmi qatında avtodayanacaq və texniki xidmət sahəsi fəaliyyət göstərir. Binanın həyətyanı sahəsində abadlıq və yaşıllaşdırma işləri görülüb. Daha sonra Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olub.

Prezident İlham Əliyev dekabrın 2-də Oğuz rayonuna da səfər edib. Dövlət başçısı Ulu Öndər Heydər Əliyevin Oğuz şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Ölkə rəhbəri Oğuzda Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su elektrik stansiyaları silsiləsinin açılışında da iştirak edib. Həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə Oğuz şəhərində inşa edilmiş və istifadəyə verilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak edib. Prezident Oğuz rayonunda "Aqroinkişaf 2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) "Şəki-Oğuz" Aqroparkında yaradılan şəraitlə, eyni zamanda Aqroparkın torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üzrə görülmüş işlərlə tanış olub. Dövlət başçısı aqroparkın torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi qurğularını işə salıb. Prezident Oğuz rayonunda "Şəki-Oğuz" Aqroparkının qoz məhsulunun qərzəkdən təmizlənməsi, yuyulması və qurudulması zavodunun təməlini qoyub.

**İsmayıl**

# "ABŞ və Rusiya sözünün üstündə durmadı"

## Çavuşoğlu: "Ona görə də biz əməliyyatı davam etdirməliyik və bu ərazini terror ünsüründən təmizləməliyik"



**Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu İtaliyanın paytaxtı Romada keçirilən 8-ci Aralıq dənizi Dialoq Forumunda iştirak edib. O, çıxışında dövlətlər arasında etimadsızlıq olduğunu söyləyib: "Yeni bir beynəlxalq sistemin doğulduğunun şahidi oluruq.**

Əslində, belə bir sistemə ehtiyac yoxdur. Biz həqiqətən mühüm problemlər qarşısındayıq. Böhranlarla mübarizə aparmağa çalışırıq. Hazırda bir çox güc mərkəzləri var. Məsələn, texnologiya kifayət qədər inkişaf edib. Bu o deməkdir ki, dünyanın ərzaq ehtiyacları ödənilə bilər. Lakin ərzaq təhlükəsizliyi vacib məsələ olaraq qalır. Məhz bu səbəbdən iqlim dəyişikliyindən tutmuş enerji təhlükəsizliyinə qədər bir çox fərqli böhranlarla üzləşirik. Və heç bir ölkə bütün bu maneələri təkbaşına həll edə bilməz".

Mövlud Çavuşoğlu deyib ki, Türkiyə son 2 ildə Suriyadan terrorla bağlı 2000-dən çox hücum yaşayıb və 500-dən çox adam həyatını itirib.

Nazir bildirib ki, bu hücumlar zamanı mülki insanlar öldürülüb: "İraqda da son 1 ildə 800-dən çox terror hücumu yaşadıq. Rusiya və ABŞ-la aramızda razılaşma var idi ki, terrorçuları bizim sərhədimizdən 30 km o tərəfə aparacaqlar. Amma bu sözlərini tutmadılar. Terrorçular bu gün də bizə hücum etməyə davam edirlər. Ona görə də biz bu əməliyyatı davam etdirməliyik və bu ərazini hər hansı terror ünsüründən təmizləməliyik. Bu ərazilərin bəzilərində biz artıq DEAŞ-ı təmizləmişdik. Artıq bu bölgənin bir hissəsini bölgədəki digər terror təşkilatlarından təmizləmişik. Amma eyni zamanda biz kəşfiyyat səviyyəsində rejimlə əlaqə saxlayırıq. Çünki dediyim kimi, bu terror təşkilatlarının separatçı gündəmi var", - deyə o bildirib.

# Zəngəzur bölgəsi qlobal məkandır

## Qərb və Rusiya məhz bu dəhliz uğrunda mübarizə aparır



**"Rusiya Ukraynada apardığı savaşdan ən böyüyünü Zəngəzur dəhlizində aparır. Ukrayna müharibəsində qalib gəlsə, qazandığı Avropa olacaq. Zəngəzurda qalib gəlsə, Sakit Okean ilə Atlantik Okean arasında ticarət yoluna nəzarət qazanacaq".**

Bunu "Şərq"ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri Beynəlxalq Münasibətlər (BM) üzrə şərhçi Əziz Əlibəyli deyib.

**Şərhçi bildirib ki, Şərqdən Qərbə yük daşımaları tormozlanıb. Hind okeanı vasitəsilə gerçəkləşir, yeni yol beş dəfə uzanıb:** "Aşağı dəhliz Hind okeanı, yuxarı dəhliz isə Rusiya ərazisindən keçir. Rusiya sanksiya altında olduğuna görə beynəlxalq yüklərin daşınmasında böhran yaranıb. Belə olan halda orta dəhliz meydana çıxır. Orta dəhlizin Zəngəzurdan keçməsi düşünülür. Lakin Zəngəzurdan dəhliz keçirmək imkanı yoxdur. Çünki Rusiya ilə Qərb Zəngəzur dəhlizi üzərində anlaşa bilmir. Ukrayna-Rusiya müharibəsi ya Qərbin, ya da Rusiyanın qalibiyyəti ilə nəticələnəcək. Amma bu, iki mərkəz arasındakı regional savaşdır. Regional savaşda Rusiya məğlubiyyətə uğrasa, kiçik Avropa dövləti olacaq. Qərb qalib gələrsə, Avropada Qərbin gücü əvvəlki kimi hakim mövqe tutacaq.

Zəngəzur bölgəsi qlobal məkandır. Burada Çin, Böyük Britaniya, Rusiya var. Güvvələrin parametri çox böyükdür. Orta yol Zəngəzurdan keçməlidir. Savaşların yekunu coğrafiyamızın hərbi, strateji əhəmiyyəti üzərində vurulacaq. Azərbaycanla Ermənistan arasında sülh danışıqları fonunda "Vaşinqton", "Brüssel" və digər planların toqquşduğu məkan məhz Zəngəzurdur".

*Qeyd edək ki, Rusiya 2022-ci il fevralın 24-dən Ukrayna ilə müharibə edir. Müharibə hər ötən günü yeni dağıntılar və itkilərlə yadda qalır. Rusiya-Ukrayna müharibəsi artıq nəinki döyüşən tərəflərə, hətta Qərbə və bütün dünyaya ciddi ziyan vurub. Qlobal taxıl tələbatının 1/3 hissəsi, günəbaxan yağının isə 2/3 hissəsi Rusiya və Ukraynanın payına düşür. Əsasən, Yaxın Şərq və Afrikanın şimalındakı ölkələrin ərzaq təhlükəsizliyi Rusiya və Ukraynadan asılıdır. Dünyada enerjidaşıyıcılarının təhlükəsizliyində də ciddi problemlər yaranıb.*

**Aygün Tahir**

# Ərdoğanla Britaniya Baş naziri arasında telefon danışığı olub



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Böyük Britaniyanın Baş naziri Rişi Sunak arasında telefon danışığı olub.**

APA-nın İstanbul müxbiri xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Administrasiyası məlumat yayıb.

Qeyd olunub ki, danışıq zamanı başda ticarət və müdafiə sənayesi olmaqla iki ölkə arasında əlaqələri yaxşılaşdıracaq addımlar müzakirə edilib.

Bundan əlavə, Ərdoğan, Rusiya ilə Ukrayna arasında danışıqlar üçün zəminin tez bir zamanda yenidən qurulmasının bütün tərəflərin marağında olduğunu vurğulayıb. O, həmçinin Kipr probleminin həlli üçün yeni və konkret addımların atılmasının vacibliyinə diqqət çəkib.

# Anası feysbuk səhifəsində yazdı

## Saakaşvili Gürcüstan siyasətini tərk edir



**Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili ölkənin siyasi həyatında iştirak etmək niyyətində deyil. Azərtac xəbər verir ki, bu barədə Mixeil Saakaşvilinin anası Qiuli Alasaniyanın sabiq prezidentin feysbuk səhifəsində dərc olunan bəyanatında deyilir.**

"Mixeil Saakaşvili ölkənin siyasi həyatında iştirak etmək niyyətində deyil və ədalətli qərara ümid bəsləyir", - deyə bəyanatda bildirilir. Qiuli Alasaniyanın sözlərinə görə, həbsxanada olan Mixeil Saakaşvili vəkillərinin iddiasına baxmayaraq, mümkün zəhərlənməsi ilə bağlı Gürcüstan hakimiyyətini günahlandırmır. Onun səhhəti ilə bağlı keçirilən ekspertizanın nəticəsinə əsasən, siyasətçinin orqanizmində civə də daxil olmaqla, ağır metallar aşkarlanıb. Mixeil Saakaşvilinin anası siyasətçinin digər ölkə tərəfindən zəhərlənməsini istisna etməyib. Bir müddət öncə "Empatiya" qeyri-hökumət təşkilatı Mixeil Saakaşvilinin orqanizmində həbsxana şəraiti bir araya sığmayan on diaqnozun mövcudluğu barədə tibbi ekspertiza rəyini dərc edib. Təşkilatın rəhbəri Mariam Djişkarianinin sözlərinə görə, Gürcüstanın sabiq prezidenti müalicə olunması üçün mütləq xarici ölkəyə göndərilməlidir.

# Novruz bayramına hələ 4 ay var

## Bakıdan İstanbula uçuş biletlərinin qiymətləri fantastikdir



**Novruz bayramı günlərində "Buta Airways" loukosteri ilə Bakıdan İstanbula uçuş biletlərinin qiymətləri sosial şəbəkələrdə müzakirələrə səbəb olub.**

"Qafqazinfo" xəbər verir ki, 4 ay sonraya - martın 20-21-i tarixlərinə Bakıdan İstanbula (Sabiha Gökçen) bilet almaq istəyənlər bir tərəf üçün 598.53 AZN ödəməlidirlər. Bu tarixlərdə gediş-dönüş isə 1000 AZN-dən yuxarı məbləğə başa gəlir. Həmçinin "Buta"da "standart" bilet 563.26 AZN, "budget" isə 545.66 AZN-dir.

Aşağı büdcəli aviaşirkətdən daha ucuz bilet gözləntisi olsa da, eyni tarixlərdə milli daşıyıcı olan AZAL-la uçuşlar "Buta"dan daha münasibdir. Belə ki, martın 21-də AZAL-ın "comfort" tarifi ilə biletinin qiyməti iki 32 kq-lıq baqaj və iki 10 kq-lıq əl yükü daxil 598.72 AZN-ə təklif olunur ki, bu da "Buta"nın "super" tarifindən cəmi 19 qəpik yüksəkdir.

Mart ayının 20-21-i tarixlərinə AZAL-la Bakıdan İstanbula (İstanbul Hava Limanı) təyyarə biletinin qiyməti ekonom "lite" tarif ilə 371.65 AZN, "klassik" tarifi üçün 398.05 AZN, "safe" tarifi üçün isə 424.46 AZN təşkil edir.

Qeyd edək ki, AZAL-ın qiymət siyasəti dəfələrlə tənqidlərə tuş gəlib. Ötən ay Milli Məclisdə müzakirələr zamanı deputatlar da Azərbaycan vətəndaşının xaricə yeganə çıxış yolu olan AZAL-ın ağır maliyyə yükü olduğu dilə gətiriblər. Deputat Zahid Oruc qeyd edib ki, alternativ beynəlxalq uçuşlar həyata keçirən şirkətlərin olmadığı bir məkanda vətəndaş təkcə bir istiqamətə -Türkiyəyə gürcü və ermənilərdən 3 dəfə baha uçur.

*Xatırladaq ki, milli aviadaşıyıcı tərəfindən daha əvvəl verilən açıqlamalarda qiymətlərin bu və ya digər istiqamət üzrə aviabiletin dəyərinin uçuş tarixindən və biletin alınma tarixindən, mövsümi uçuş cədvəlindən, uçuşların tezliyindən, həmçinin təyyarədə boş yerlərin sayından asılı olaraq dəyişdiyi bildirilirdi. Şirkətin açıqlamalarında qeyd olunur ki, aviabiletin dəyəri ən aşağı tarifdən ən yüksək tarifədək əvvəlcədən müəyyən edilir. Əvvəlcə ən ucuz tariflərə aviabiletlər satılır və təyyarədə yerlər dolduqca hər növbəti aviabiletin dəyəri artır.*

# Lavrov erməni yanğısını göstərib

## Qarabağda status məsələsi olmayacaq



"Bizim hansı xəritələrlə işləyəcəyimiz bəllidir"

**Milli Məclisin iclasında deputat Siyavuş Novruzov Rusiya xarici işlər naziri Sergey Lavrovu tənqid edib. Onun sözlərinə görə, Sergey Lavrov Azərbaycanla bağlı çıxış edərkən erməni yanğısını göstərib:**

"Ötən gün Rusiya xarici işlər naziri danışdı, o boyda dövlətin naziri erməni yanğısı ilə fikir bildirdi. Gah deyir ki, onlar vaxtında ermənilərə təklif verdilər, bu, dəyərləndirilmədi, gah mərhələli, gah da Madrid prinsiplərindən danışır. Lavrov dekabrın 1-də keçirdiyi mətbuat konfransında bildirib ki, Ermənistan rəhbərliyi son vaxtlar statusdan çox, Qarabağdakı ermənilərin hüquqları barədə danışır. Azərbaycan tərəfi Qarabağ ermənilərinin hüquqlarını təmin etməyə hazır olduğunu qeyd edib. Azərbaycan tərəfi buna hazırdır. Azərbaycan bunu müzakirə etməyə, Qarabağdakı ermənilərə Azərbaycanın digər vətəndaşlarının sahib olduğu hüquqlarla bağlı zəmanət təqdim etməyə hazırdır. Lavrov bununla belə, keçmiş Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı bir neçə variantı da xatırladıb. Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyasına gəlincə, Lavrov deyib ki, Rusiya Baş Qərargahında sərhədlərə dair xəritələr var. Rusiya bu xəritələri verməyib. Xəritəniz var, verin də, niyə saxlayırsınız? Bu xəritələrin oğurluq hadisəsi kimi gizlədilməsi nə deməkdir? Qarabağda status məsələsi yoxdur, Prezident İlham Əliyev dəfələrlə bildirib ki, status olmayacaq. Bizim hansı xəritələrlə işləyəcəyimiz bəllidir", - deputat qeyd edib. Deputat onu da qeyd edib ki, Rusiya Xarici işlər və Müdafiə nazirlikləri Azərbaycana qarşı qərəzli bəyanatlarla çıxışlar edirlər.

**Deputat Fəzail Ağamalı da bildirib ki, Rusiya Azərbaycana qarşı siyasət yürüdür. Bir tərəfdə Putinin imzası olan üçtərəfli bəyanat, ikinci tərəfdə Lavrovun Azərbaycana qarşı bəyanatları var.** Rusiya sülhməramlı qüvvələrinin komandanı elə səlahiyyətli adam deyil ki, özbaşına hərəkət etsin. Əslində, onlar sülhməramlı deyil, erməniyanlı qüvvələrdir. Biz Laçın dəhlizində öz nəzarət postumuzu yaratmalıyıq".

F.Ağamalı İranın Fransa kimi Azərbaycana qarşı əks-təbliğat kampaniyasının davam edəcəyini də vurğulayıb.

**İsmayıl**

# Millət vəkilləri "od püskürdü"

## Fransaya adekvat və bir az da artıq cavab verməliyik

**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 18 məsələ daxil edilib. Cari məsələlərlə bağlı çıxışlar Fransanın Milli Assambleyasının Azərbaycan əleyhinə qəbul etdiyi qətnaməyə həsr olunub. Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib ki, Fransanın Milli Assambleyası yenə də riyakarlıq göstərərək Senatın qəbul etdiyi qətnaməni kopyalayıb. Deputat bildirib ki, riyakarlığın ən yüksək nümunəsi Fransa Xarici İşlər Nazirliyinin verdiyi bəyanat idi:**

"Fransa Prezidenti Emmanuel Makron 44 günlük Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qətnamə qəbul olunmasını təklif edib. Özü də 2 dəfə! Bizi o zaman BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatının üzvləri müdafiə etmişdi. 2 gün bundan əvvəl qəbul edilmiş qətnamənin mətnində erməni abidələri və Qarabağda yaşayan ermənilərin taleyinə yanırlar. Qarabağda hansı erməni abidəsi var?! Olan abidələr alban abidələridir, hamısını erməniləşdiriblər. Ermənilər Qarabağda abidə qoyub? Hamısını dağıdıblar. Ermənilərin taleyindən narahatdırlar, bəs 30 ildir Azərbaycanın 1 milyona yaxın qaçqın və məcburi köçkününün taleyinə niyə biganə idilər?! Niyə qoymursunuz Ermənistan və Azərbaycan sülh danışıqlarını aparsın?! Azərbaycanı erməni tarixi abidələrini dağıtmaqda günahlandırırlar. Böhtandır, yalandır. Bu gün Afrikanın 14 ölkəsi Fransanın dövlət büdcəsinə vergi verir. Budur sənin ədalətin?! Bilin və agah olun. Həddinizi aşmayın, Fransa Prezidenti və Fransa Senatı!".

Sədr Sahibə Qafarova bildirib ki, Azərbaycan heç bir erməni abidəsini dağıtmayıb: "Siz tamamilə doğru deyirsiniz. 30 ildir azərbaycanlılar orada yaşamayıb. O zaman bu abidələri necə dağıda bilərdilər?!".

**"Fransanın niyyəti bölgədə sülhün bərqərar olunmasına xidmət etmir"**

**Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Soltan Məmmədov bildirib ki, Fransa Milli Assambleyasının noyabrın 30-da Azərbaycana qarşı qəbul etdiyi qərəzli qətnamə ilk növbədə beynəlxalq hüququn fundamental prinsiplərinə hörmətsizlikdir:** "Əsassız, obyektivlikdən uzaq, tamamilə absurd mülahizələr əsasında hazırlanmış sənədin qəbul edilməsi ikitərəfli münasibətlərimizə də Fransa tərəfindən vurulmuş növbəti zərbədir. Cənubi Qafqazdakı reallıqları tamamilə təhrif edən, Azərbaycanla Ermənistan arasında davamlı sülhün əldə edilməsi səylərinə kölgə salan bu sənəd Fransanın uzun müddətdir ki, davam edən qərəzli siyasətinin daha bir təzahürüdür. Layihənin ümumi məzmunu və ayrı-ayrı müddəaları Cənubi Qafqazda sülh və sabitliyin təmin olunmasına istiqamətlənmiş təşəbbüslərə kölgə salmaqla yanaşı, Azərbaycan ictimaiyyətinin Fransaya onsuz da kövrək etimadını bir daha zəiflədir. Təəssüf doğurur ki, Ermənistana ciddi təsir imkanlarına malik bir ölkə 30 il ərzində Azərbaycan torpaqlarının işğalı faktına laqeyd bir sükut nümayiş etdirdi. Vətən müharibəsi dövründə Ermənistanın dinc sakinləri hədəfə alan artilleriya və raket hücumlarının faciəli nəticələrinə biganə qaldı. Müharibədən sonra 270-dək Azərbaycan vətəndaşının həlak olmasına və ya yaralanmasına səbəb olan mina təhlükəsi barədə bir dəfə də narahatlıq ifadə etmədi. Birinci Qarabağ müharibəsində itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyinə aydınlıq gətirilməsi üçün heç bir çağırış etmədi. Bütün bunlar Fransanın insan hüquqlarına, beynəlxalq normalara etinasız münasibətinin təzahürüdür". Deputat vurğulayıb ki, Əlcəzairdə və Afrikanın digər bölgələrində, müxtəlif ölkələrdə soyqırımlara imza atmış bir ölkənin bu gün başqa dövlətləri hərbi təcavüzdə ittiham etməyə haqqı yoxdur: "Milli Assambleyanın qəbul etdiyi qətnamə Fransanın Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi tarixi qələbənin yaratdığı yeni reallıqlarla barışa bilmədiyini bir daha təsdiq edir.



### Bu ölkədən nə hərbi, nə siyasi cəhətdən asılılığımız, qorxumuz var

**"Sabahın açılmasının xoruzun banlaması ilə heç bir əlaqəsi yoxdur"**

**Millət vəkili Musa Quliyev bildirib ki, Fransa parlamentinin Azərbaycana qarşı qəbul etdiyi son dərəcə riyakar və qərəzli qətnamə hamımızda hiddət, nifrət doğurur:** "Bu qətnamələr siyasi sənəd deyil, müstəqil dövlət olan Azərbaycana böhtan atmaq, hədə-qorxu gəlməkdir. Qətnaməni oxuduqca dəhşətə gəlirsən, bəlkə fransız parlamentariləri yatıb yuxularında irqçi, işğalçı, qaniçən müstəmləkəçi babalarını görüblər və hesab ediblər ki, Azərbaycan xalqı da onların müstəmləkəsi olmuş xalqlardan biridir? Hesab edirlər ki, Azərbaycana qarşı istədikləri kimi davrana bilərlər və əks reaksiya görməzlər?". Deputatın sözlərinə görə, hər kəsə aydındır ki, Fransanın canfəşanlığının səbəbi gorbagor olmuş keçmiş Minsk qrupunun fəaliyyətini yenidən bərpa edərək, Ermənistanın vasitəsi ilə bölgədə qalmaq istəyidir: "Makron hökumətinin əxlaqsız davranışının digər səbəbi isə gələn il Fransada keçiriləcək seçkilərlə bağlıdır. Makron və makronoidlər bu qətnamə ilə erməni lobbisindən seçki kampaniyasına maliyyə dəstəyi adı altında aldıqları çirkli pulları və seçkilər zamanı erməni elektoratının səslərini "ağartmağa" çalışırlar. Fransaya adekvat və bir az da artıq cavab verməliyik. Bu cavablar Azərbaycanın dövləti, hökuməti, Parlamenti, ictimaiyyəti tərəfindən verilir və hədəfə çatmaqdadır. Biz qalib xalq, güclü dövlətik. Nə iqtisadi, nə hərbi, nə də siyasi cəhətdən Fransadan asılılığımız və qorxumuz var. Belə kağız-kuğuz parçaları könül bulandıra bilər, amma yolçunu yolundan saxlaya bilməz".

**"Uyğun zamanlarda bununla bağlı qətnamə hazırlamalıyıq"**

**Deputat Sahib Alıyev deyib ki, Fransada qəbul olunan qətnamələr, sadəcə, iddiası ilə potensialı üst-üstə düşməyənlərin, Azərbaycana təzyiq yolu ilə sövdələşməyə cəhd edən riyakarların növbəti sərsəmləmələridir:** "Fransa da, ona 44 günlük savaş zamanı qoşulmuş və yəqin yenə qoşulacaq digərləri də gec-tez anlayacaqlar ki, bu cür davranışlarla onlar öz məqsədlərinə çata bilməyəcəklər. İlk növbədə ona görə ki, qarşılarındakı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin liderlik etdiyi ləyaqətli olduğu qədər də qətiyyətli bir millət və dövlətdir. Ola da bilsin ki, rəsmi Paris Ermənistanı 169 il öncə qamarladığı dənizaşırı departamentlərindən olan Yeni Kaledoniya gözündə görür, amma nə Qarabağ sonradan Kaledoniyaya qatdığı Metyu və Hanter adalarıdır, nə də Azərbaycan həmin üç adanın əlindən alındığı Vanuatudur. Azərbaycanın Vanuatu olmadığını Fransa İkinci Qarabağ savaşı zamanı BMT-də, iki həftə öncə isə Beynəlxalq Frankofoniya Təşkilatının Tunisdəki Zirvəsində əleyhimizə hazırladığı qətnaməni keçirə bilməməklə gördü. Amma təəssüf ki, o dövlətin başında heç bir baxımdan yerində olmayan, öz təbirlərincə desək, "inadekuat" biri dayandığından hələ düzgün nəticə çıxarmırlar. Ona görə, yenə də keçən dəfə bir neçə həmkarımın və mənim irəli sürdüyümüz təklifin üzərinə qayıdıram, fikrimcə, biz Fransanın bu riyakarlığını təkcə pisləməklə kifayətlənməməli, gərəkən digər addımları da atmalıyıq. Sərhədlərindən 10, 12, hətta 15 min kilometr uzaqda yerləşən 13 ayrı-ayrı torpağı özününküləşdirən bir ölkənin təcavüzündən əziyyət çəkən dövlətlərə parlament diplomatiyası çərçivəsində dəstəyimizi bildirməliyik". S.Alıyevin sözlərinə görə, Fransa Mərakeşin 3, Surinamın Qviana qarışıq bir neçə, Qəmərin Mayottu, Mavrikin Tromlen adalarını ələ keçirib öz deparatment, yaxud da torpaqları kimi təqim etdiyindən sözügedən ölkələrlə arasında neçə illərdir davam edən qarşıdurma var: "Fikrimcə, biz həmin ölkələrin parlamentlərinə haqlı davalarında dəstəyimizi çatdırmalı, uyğun zamanlarda bununla bağlı qətnamə hazırlamalıyıq".

**İsmayıl**

# Sülhməramlılar əndazəni aşır

## Xarici vətəndaşların Xankəndiyə ayaq açmasına Rusiya şərait yaradır



"Bakı Moskvaya öz vəzifələrini xatırlatmalıdır. Əks halda, Azərbaycan erməni silahlıları ilə yanaşı, həmin şəxsləri də antiterror əməliyyatlarının hədəfinə gətirə bilər"

**"Rusiya sülhməramlı kontingenti Kremldən aldığı gizli hərbi-siyasi təlimatlarla böyük qələtlər edir ki, bu da münasibətləri gərginləşdirir". Bu sözləri "Şərq"ə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, Rusiya sülhməramlıları münaqişədən sonrakı reallıqlarda Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsində müəyyən rola sahibdirlər.**

Amma onların mandatı ilə fəaliyyətləri arasındakı ziddiyyətlər Qarabağda silahlı münaqişəni diriltmək meyilləri ilə xarakterizə olunur: "Bu yaxınlarda sülhməramlıların fəaliyyətinin nəticəsi olaraq növbəti "şad xəbər"i aldıq. İddialara əsasən, 14 xarici vətəndaş onların müvəqqəti məsuliyyət zonasından keçərək Xankəndiyə ayaq basıb.

Azərbaycan mətbuatındakı həmin iddia ilə bağlı informasiya axınında İranın adı çox hallanır. Təbii ki, sıradan iddialar deyil, məlumatlara əsasən, həmin 14 şəxs iranlıdır. Bunun doğruluğunu sübut etmək üçün əlimizdə maddi dəlillər toplusu olmasa da, qazanın içindən Tehranın çıxması xəbərləri ən uyğun təsbit edilmiş versiya kimi saxlanıla bilər. İran regional ambisiyalarının mərhələlərində xeyli uğursuzluğa düçar olsa da, Azərbaycana qarşı Ermənistanın əlinə oynayan xarakterini əsaslı şəkildə dəyişməyib. Bu, Tehranın kəşfiyyat-pozuculuq fəaliyyətinin hələ də aktual olaraq qaldığını göstərir. 14 şəxs kimdir, hansı ölkənin vətəndaşıdır? Əslində bu da o qədər önəmli deyil. Çünki nəticə olaraq həmin şəxslər sülhməramlıların xeyir-duası altında mübhəm bir planla Xankəndiyə yol tapıblar. Azərbaycan həmin məchul şəxslərin öz ərazilərində mövcudluğunu müxtəlif pərdə altında həyata keçirilən terror fəaliyyəti kimi qiymətləndirmək hüququna sahibdir. Yəni dəxli yoxdur, hansı ölkənin vətəndaşıdır. Onların Bakının razılığı olmadan Azərbaycan ərazilərinə soxulması Azərbaycana qarşı məhdud kontingentdən istifadə edərək geniş hədəflərə çatmaq planlarının carçısıdır".

**A.Kərimova görə, Rusiya həmin insanların Azərbaycan ərazilərinə soxulmasını sırf özünün nəzarətində olan iqtisadi hab yaratmaq məqsədlərinə calayır:** "Rusiya gələcək üçün Qarabağda və Şərqi Zəngəzurdakı qızıl yataqlarının istismarında hüquqi pay sahibi olmaq üçün həmin 14 nəfərdən istifadə edir. Regionda terror ünsürlərini yetişdirmək potensialında olduğu siqnallarını çatdırmaqla Bakıya təzyiq etmək istəyir. Məsələdə Rusiya ilə İran sövdələşiblər və Moskva öz amallarına irəliləmək üçün Tehranın pozuculuq fəaliyyətindən istifadə edir. Səbəblər zəncirini bir kənara qoyaq, ortada bir nəticə var ki, bu da sirli insanların, ya da aşkar casusluq fəaliyyəti ilə məşğul olanların Azərbaycan ərazilərində peyda olmalarıdır. Həmin nəticə Azərbaycan ilə Rusiya arasında imzalanan Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti Haqqında Bəyannamənin ruhunun Kreml tərəfindən tapdalanması deməkdir. Mövcud halı Bəyannamənin 11-ci və 18-ci maddələri ilə tövsif etmək olar ki, burada Bakı Moskvaya öz vəzifələrini xatırlatmalıdır. Əks halda, Azərbaycan erməni silahlıları ilə yanaşı, həmin şəxsləri də antiterror əməliyyatlarının hədəfinə gətirə bilər, ona görə də yaxşı olar ki, Moskva indidən yaratmaq istədiyi çətiri terror vasitəsilə deyil, praqmatik iqtisadi-siyasi ideallarla təklif kimi Bakıya təqdim etsin".

**İsmayıl**



# Sülhə yeni pəncərə açılır

## Rusiya oyundan kənar vəziyyətə düşə bilər

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Polşada Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cozef Borellə görüşüb. Görüş zamanı Azərbaycan və Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələləri, münasibətlərin gələcək perspektivləri, habelə energetika sahəsində əldə edilmiş razılıqların icrası müzakirə olunub.**

Təbii ki, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin irəlilələməsi istiqamətində səylər və Avropa İttifaqının rolu barədə də fikir mübadiləsi aparılıb. Ermənistanın proses çərçivəsində maneələr törətdiyi, liderlər səviyyəsində əldə edilmiş razılıqlar üzrə öhdəliklərdən boyun qaçırdığı, danışıqlar prosesi barədə yanlış təəssürat yaratdığı diqqətə çatdırılıb. Nazir həmçinin işğaldan azad olunmuş ərazilərdə mövcud mina təhlükəsinə bir daha diqqət yönəldib.

Borrel də öz növbəsində Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ilə işləməkdə davam edəcəyini deyib: "Cənubi Qafqazda dayanıqlı sülhə nail olmaq üçün tarixi imkan var". Aİ-nin ali nümayəndəsi hər iki tərəfi bu fürsətdən istifadə etməyə çağırıb və əlavə edib ki, Avropa İttifaqı Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasına hər cür töhfə verməyə hazırdır. Borrel Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlıq münasibətlərinin böyük inkişaf potensialının olduğunu qeyd edib.

**Borrelin fəallığını "Şərq"ə dəyərləndirən politoloq Elçin Xalidbəyli bildirib ki, Rusiya bundan sonra da Cənubi Qafqazdakı sülh prosesinin müsbət inkişaf istiqamətləri qazanmasına mümkün olduğu qədər əngəl törətməyə çalışacaq. Ekspertə görə, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması Rusiyanın regiona təsir mexanizmlərinin öz əhəmiyyətini itirməsi ilə nəticələnə bilər:** "Ona görə də Rusiya bu prosesdə birmənalı şəkildə əngəlləyici faktor rolunu oynayır. Kreml hətta sülh sazişinin imzalanmasına razılaşsa belə, həmin sənədin Azərbaycan və Ermənistanın deyil, məhz Rusiyanın regional maraqlarını ifadə etməsinə çalışacaq. Ancaq ABŞ və Avropa Birliyi tamamilə fərqli mövqedən çıxış edir. Belə ki, həm ABŞ, həm də Avropa Birliyi Cənubi Qafqazda mümkün qədər tez bir zamanda sülhün və sabitliyin bərqərar olmasında maraqlıdır. Ona görə də hazırda ABŞ və Avropa Birliyi həm Azərbaycanı, həm də Ermənistanı yekun sülh sazişinin imzalanmasına çağırır. Böyük ehtimalla yaxın vaxtlarda Azərbaycan və Ermənistana bu məsələ ilə bağlı müəyyən təzyiqlərin göstərilə biləcəyi də qətiyyən istisna deyil. Onu da qeyd etmək lazımdır ki, Avropa Birliyi Cənubi Qafqazdakı sülh prosesinə yaxın gələcəkdə reallaşdırıla biləcək geoiqtisadi layihələr üzərindən yanaşır. Xüsusilə də indiki situasiyada Azərbaycanın enerji resursları Avropa Birliyi üçün həyati və strateji əhəmiyyət daşıyır. Bu qurum hətta Azərbaycanı Avropa Birliyinin enerji təhlükəsizliyi üzrə əsas strateji tərəfdaşı hesab edir. Halbuki regionda hərbi-siyasi gərginliyin hələ də real təhlükə vəd etməsi Avropa Birliyinin enerji maraqlarının reallaşdırılmasına da müəyyən problemlər vəd edir.

### Yaxın vaxtlarda sülh danışıqları Avropa Birliyi və ABŞ-nin fəal dəstəyi ilə bərpa olunacaq

Ona görə də Avropa Birliyinin xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali təmsilçisi Cozef Borrelin Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə görüşməsi qətiyyən təsadüfi deyil. Böyük ehtimalla Avropa Birliyi təmsilçisi hər iki nazirlə regionda sülhün və sabitliyin təmin olunmasına yönəlik fəaliyyətə üstünlük verməyə çağırıb. Bunun Avropa Birliyi üçün əhəmiyyətini də əsaslandırmağa çalışıb. Ümumiyyətlə, son vaxtlar Avropa Birliyi regionda fəaliyyətinin, eləcə də Azərbaycan və Ermənistan ilə münasibətlərin böyük ölçüdə yekun sülh sazişinin imzalanmasından asılı olduğunun da açıq mesajlarını verməyə başlayıb. Yəni bu qurum Azərbaycan və Ermənistana Avropa Birliyi ilə əməkdaşlığın yalnız sülh sazişinin imzalanacağı təqdirdə, mümkün olacağına eyham vurur".

**E.Xalidbəyli qeyd edib ki, böyük ehtimalla C.Borrel hər iki nazirə sülh danışıqları masasına qayıtmağın vacibliyini bildirib:** "Bu prosesdə məhz Avropa Birliyi Şurasının rəhbəri Şarl Mişelin vasitəçilik missiyasının önəmli olduğu qabardılıb. Yəni Avropa Birliyi regional sülh prosesində Rusiyanın əngəlləyici faktor olduğunu xüsusi olaraq gündəmə gətirir. Və alternativ platformaların regional sülh prosesi üçün daha faydalı ola biləcəyini vurğulayır. Bütün bunları nəzərə aldıqda, yaxın vaxtlarda Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının məhz Avropa Birliyinin vasitəçiliyi və ABŞ-nin fəal dəstəyi ilə bərpa olunacağı tamamilə inandırıcı görünür. Rusiyanın tezliklə bu prosesdən kənarda saxlanılmasına nail oluna biləcəyi də qətiyyən istisna deyil. Yəqin ki, Kremlin pozuculuq fəaliyyətinin bloklanması tezliklə mümkün olacaq. Rusiyanın Ukrayna savaşında zəifləməsi belə imkanları genişləndirir. Digər tərəfdən rəsmi Bakının Azərbaycan və Avropa Birliyi arasında yeni tərəfdaşlıq müqaviləsi imzalamağa hazırlaşması da bu prosesdə böyük önəm daşıyır. Rusiya tədricən oyundan kənar vəziyyətə düşə bilər. Kremlin Azərbaycan əleyhinə son davranışları artıq rəsmi Bakının da səbrini tükəndirib. Rəsmi Bakı tədricən Azərbaycanın xarici siyasətini Qərbə doğru istiqamətləndirməyə üstünlük verə bilər".

**İsmayıl Qocayev**



# Qərb "Vaqner"i terrorçu təşkilat kimi tanıyacaq

## Rusiya kəşfiyyatı tərəfindən idarə olunan bu qruplaşmaya qarşı ən ağır sanksiyalar tətbiq olunmalıdır

**ABŞ Rusiyaya bağlı ”Vaqner” dəstəsini terror təşkilatı elan etmək niyyətindədir. Amerikalı senatorlar Dövlət Departamentindən ”Vaqner” özəl hərbi şirkətini (ÖHŞ) xarici terror təşkilatı kimi tanımasını tələb edən qanun layihəsi təqdim ediblər.**

Bildirilib ki, Nümayəndələr Palatasında da analoji təşəbbüsə baxılacaq. Senatorların təklif etdiyi qanun layihəsində ”Vaqner”in davamçılarına bağlı olan istənilən strukturların xarici terror təşkilatları elan edilməsi də təklif olunub. Bir təşkilata terror strukturu statusu verməklə ABŞ onun üzvlərinə qarşı cinayət işi açmaq və bütün dünyada beynəlxalq aktivlərinə nəzarət etmək hüququ verir.

**Politoloq Azər Rəşidoğlu ”Şərq”ə deyib ki, ”Vaqner” özəl hərbi şirkəti Afrika və Suriyada törətdiyi vəhşi əməlləri ilə tanınıb.** Analitik bildirib ki, bütün dünyada rus ordusu deyəndə, fərariliyin, başıpozuqluğun baş alıb getdiyi, heç bir müharibə qanununa və ənənəsinə məhəl qoymayan, günahsız mülki əhaliyə qarşı qətliamlar törədən işğalçı dəstə nəzərdə tutulur. Rusiya ordusunun bel sütununu kriminal yuvası olan ”Vaqner” dəstələri və R.Kadırovun başkəsənləri təşkil edir. Bu baxımdan, kollektiv Qərb rus ordusunun aparıcı qüvvəsinə çevrilən ”Vaqner”i terrorçu təşkilat kimi tanıyacaq. Artıq Avropa Parlamenti və NATO Parlament Assambleyası Rusiyanı terrora dəstək verən dövlət kimi tanıyıb. Yəni bütünlükdə hazırkı Rusiya dövlətinə və onun ordusuna haqlı olaraq terrorçu damğası vurulmaqdadır. Suriyada tarixi Palmira şəhərinin İŞİD-dən azad edilməsində ”Vaqner” qrupu aparıcı rol oynayıb. Bu döyüşçülərin Şimali Qafqazda, əsasən Krasnodar vilayətindəki qapalı qəsəbələrdə xüsusi hazırlıq keçməsi barədə iddialar var. 2017-ci ilin sonunda Suriyada bu gizli ordunun 1500-2000 arası döyüşçüsünün olduğu bildirilib. Bu döyüşçülərdən, əsasən, 2015-ci ildə - münaqişənin pik həddinə çatdığı vaxtlarda istifadə olunub. Həmin vaxta kimi bu ”gözəgörünməz” Rusiya ordusunun 150-dək döyüşçüsünün həlak olduğu barədə məlumatlar ictimaiyyətdən gizlədilib. Məxfi ordunun əsgərləri Əsədin hökumət qoşunları ilə çiyin-çiyinə döyüşüb və Rusiyaya rəsmi ordunun itkilərini aşağı həddə saxlamaq imkanı verib. ”Vaqner” qrupu muzdlularının Suriyada mülki şəxslərə qarşı qırğınlarda və işgəncələrdə aktiv iştirakı barədə məlumatlar var. 2017-ci ildə ”Vaqner” muzdluları Suriyanın Homs əyalətində Bəşər Əsədin ordusundan fərarilik etmiş əsgəri tutub vəhşi işgəncələrlə öldürüblər, daha sonra cəsədini təhqir ediblər və benzin töküb yandırıblar”.

**A.Rəşidoğlu qeyd edib ki, ”Vaqner” şirkətinin 300-ə yaxın muzdlusunun Liviyanın bir hissəsinə nəzarət edən marşal Xəlifə Xaftarın ordusuna dəstək verdiyi də məlumdur:** ””Vaqner” Rusiya kəşfiyyatı tərəfindən idarə olunur. Bu qruplaşma əsl terror təşkilatıdır və ona qarşı ən ağır sanksiyalar həyata keçirilməlidir. Bu gün Ukraynada ən ağır cinayətləri də ”Vaqner” həyata keçirir. Odur ki, bu qurumun terrorçu kimi tanınması tam məntiqlidir”.

**İsmayıl Qocayev**

# İrəvan səhvlərini anladı

## Ermənistan indi Macarıstanla münasibətləri bərpa etməyə çalışır



**“Ermənistanın Macarıstanla diplomatik münasibətləri bərpa etmək qərarı biabırçılıqdır”. Bu sözləri Parlamentin ”Hayastan” blokunun deputatı, ”Daşnaksütyun” partiyasının nümayəndəsi İşxan Saqatelyan bildirib. Onun fikrincə, Macarıstanla əlaqələri yaxşılaşdırmaq Ermənistan hakimiyyətinin onurğasız siyasət yürütdüyünə dəlalət edir.**

Saqatelyan əlavə edib ki, Ermənistan hakimiyyəti bu addımı ilə Macarıstanda erməni zabitini öldürən və Azərbaycanda qəhrəman kimi qarşılanan Ramil Səfərovu bağışlamış olur. Erməni deputat bütün bunların ümumi siyasət kontekstində həyata keçirildiyinə əminliyini ifadə edərək deyib ki, Türkiyə, Azərbaycan və Ermənistan dövlət başçılarının Praqadakı görüşündə Macarıstanın baş nazirinin iştirakı təsadüfi olmayıb.

Qeyd edək ki, Polşada keçirilən ATƏT Nazirlər Forumu çərçivəsində Ermənistan və Macarıstanın xarici işlər nazirləri Ararat Mirzoyan və Peter Siyartonun görüşündə tamhüquqlu diplomatik münasibətlərin bərpası barədə razılıq əldə olunub.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Macarıstan Avropa İttifaqının mövqeyi olan dövlətlərdəndir. Ekspert bildirib ki, bu dövlətlə diplomatik münasibətlərin olmaması Ermənistanın maraqlarına zidd idi:** ”Bu səbəbdən vaxtilə Ramil Səfəvorun azad olunmasına qarşı Macarıstanla əlaqələri kəsən İrəvan bunun əbədiyyətə qədər uzanmasının onun maraqlarına cavab vermədiyini anladı. O ki qaldı Ramil Səfərova, Macarıstandakı məlum hadisə erməni təxribatına ilk tutarlı cavab idi. Ardınca Mübariz İbrahimovun şücaəti və İkinci Qarabağ müharibəsi zamanı yüzlərlə qəhrəmanlıq nümunəsi qeydə alındı. Ancaq işimiz hələ bitməyib...”.

**İsmayıl**

# Ən böyük riyakar Makrondur

## Onun fraksiyası mütləq səs çoxluğuna sahib olmasa da, təsiredici gücə malikdir

**“Fransa Milli Assambleyası yenə Senatın qətnaməsini kopyalayıb”.**

**Bunu Milli Məclisin iclasında deputat Ziyafət Əsgərov deyib.**

O, məsələ ilə bağlı Fransa Xarici İşlər Nazirliyinin mövqeyini riyakarlıq adlandırıb: ”Fransa xarici işlər naziri qeyd edib ki, Senat və Assambleya Fransa hakimiyyətinin ayrı qoludur və Parisin mövqeyini əks etdirmir. Bu qədər ikiüzlülük, bu qədər riyakarlıq olar? Bu qətnamədə yenə ”Dağlıq Qarabağ” yazırlar. Orada Ermənistan abidələrinin qorunmasından danışırlar. Hansı erməni abidələrindən danışılır?

Hamısı Azərbaycan abidəsidir. Bu günə qədər Fransa 5 respublika yaradıb, amma içini qura bilməyib. Fransa niyə qoymur ki, Azərbaycan və Ermənistan arasında sülh yaradılsın, niyyəti nədir? Bilin və agah olun, Fransa, həddinizi aşmayın, Qarabağ Azərbaycandır!”.



**Millət vəkilinin sözlərinə görə, Fransa tarix boyu müstəmləkəçilik siyasəti aparıb:** ”Fransa Vyetnamdan tutmuş, Afrikaya qədər müstəmləkçilik siyasəti həyata keçirib. Bu gün də Afrikanın 14 ölkəsi Fransaya vergi verir. Fransa deyir ki, sizə müstəqillik vermişik, dilimizdən, təhsil sistemimizdən istifadə edirsiniz. Buna görə də həmin ölkələrdən vergi alırlar”.

**Deputatın haqlı olduğunu deyən politoloq İlqar Vəlizadə ”Şərq”ə bildirib ki, Fransadakı qanunlar parlament tərəfindən müəyyənləşir:** ”Çünki parlamentdə çoxluğu olan fraksiyalar birləşib hökuməti formalaşdırır. Düzdür, Makronun fraksiyası mütləq səs çoxluğuna sahib deyil. Amma bütün hallarda təsiredici gücə malikdir.

Yeri gəlmişkən, qəbul olunan qətnamənin təşəbbüskarları da elə Makronun fraksiyasıdır. Bu səbəblə də verilən açıqlama, həqiqətən də, riyakarlıqdır. Necə yəni bizim əlaqəmiz yoxdur? Bu açıqlamalar gülünc görsənir.

Ümumiyyətlə, Fransanın bəzi hökumət nümayəndələri məsələni parlamentin üzərinə yıxmaq istəyirlər. Ancaq əslində burada kollektiv məsuliyyət var. Yəni Parisdəki hökumət ilə, Parlamentin siyasəti vahid məfhumdur və onu bölmək olmaz”.

**Nihat Müzəffər**

# “Naxçıvanla bağlı ermənin öyrətdiyi adamlar fikir söyləyirlər"

## Siyavuş Novruzov: “Xahiş edirəm ki, bu məsələyə diqqətlə yanaşılsın, korrupsiya harada var, ora yoxlanılır”



**Milli Məclisin dünənki iclasında Naxçıvanda aparılan yoxlamalar və həbslər də gündəmə gətirilib. Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, Naxçıvan həssas bölgədir:**

”Həssas bölgə ilə bağlı ermənin öyrətdiyi adamlar fikir söyləyirlər. Burada hər hansı siyasi oyunbazlığın qurulmasına heç bir ehtiyac yoxdur. Hüquq-mühafizə orqanları oranı da yoxlayır. Bakıda neçə nazirlik yoxlanıldı, yeddi icra başçısı tutuldu. Bunlar da Azərbaycan vətəndaşlarıdır. Xahiş edirəm ki, bu məsələyə diqqətlə yanaşılsın. Korrupsiya harada var, ora yoxlanılır”. S.Novruzov vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Prezidentin, dövlətin, dövlətçiliyin arxasındadır, ona sədaqətlidir: ”Bir çox adamlar yuyulmamış çömçə kimi özlərini ortaya atıblar. Azərbaycan Prezidenti nəyi, nə zaman, necə etmək lazımdır, hamıdan yaxşı bilir. Naxçıvanın həssas bölgədə yerləşdiyi nəzərə alınmalıdır. Bir tərəfdən İran, digər tərəfdən Ermənistanla ən böyük sərhəd Naxçıvan Muxtar Respublikası ilədir. Həssas bölgə ilə yanaşı, ermənin öyrətdiyi başqa-başqa adamlar çıxışlar edirlər, baş verənlərə münasibət bildirirlər. Naxçıvanlılar dövlətin, dövlətçiliyin arxasındadır, şəhid olmağa hər an hazırdırlar”.

**İsmayıl**



“Kim nə istəyir desin, əsas odur ki, Əlisa Nicatın üzü gülür”

# "Azərbaycan ziyalısı şah kimi yaşamalıdır"

## Şahbaz Xuduoğlu: “Çingiz Abdullayev gedib Əlisa Nicatla maraqlansa kostyumunun üstünə tozmu qonar!?”

**”Qanun” Nəşrlər Evinin direktoru Şahbaz Xuduoğlu ”Şərq” qəzetinə müsahibəsində yazıçı Əlisa Nicatın durumu ilə bağlı vəziyyətə aydınlıq gətirib: ”Xırda yazı böyük dönüşə səbəb oldu. Gecə boyu onun kartına pul köçürüldü.** Yardım edənlər bəzi halda qəbzlərini də mənə atırdılar. 1, 10, 20, 50, 100, hətta 200 manat yardım edən də vardı. Oğlu Üzeyirlə yardımların məbləğini öyrənmək üçün atasının kartını bankomata saldıq. Üzeyir gözlərinə inanmadı, ”vay dədə, bu nədi ədə” dedi. 6987 manat yazılmışdı. Bu, yalnız bir gecədə toplanan məbləğdir. Mən bir anlıq qanadlandım”.

**- Şahbaz bəy, ictimaiyyətin bir qismi hesab edir ki, diqqət çəkdiyiniz məsələ reklam məqsədi ilə paylaşılan bir kampaniyadır. ”Qoymadılar qalan ömrünü təmənnasız-töhmətsiz başa vursun” kimi fikirlər paylaşılır...**

- Hər kəs istədiyi kimi düşünmək və yazmaq azadlığına sahibdir. Biz insanların düşüncələrinə müdaxilə edə bilmərik. Mənim üçün önəmli olan Əlisa Nicatla bağlı problemin bu qədər qısa vaxtda öz həllini tapmasıdır. Çox sevincliyəm. Az, ya çox - heç fərq etməz. Əsas odur ki, Əlisa Nicat faktoru minlərlə insanı bir araya gətirdi. Əlisa Nicatın dərdinə şərik çıxan, ona kömək edən insanların sayəsində biz bir daha buna əmin olduq. Bir daha əmin oldum; bu xalq möhtəşəmdir! Biz birlikdə güclüyük!

Əlisa Nicata yardım kampaniyası davam edir. Yardım təklifləri, yardımların ardı-arası kəsilmir.

Səhər ustalar Əlisa bəyin evinə gedib istilik sistemi üçün büdcə çıxardılar. Artıq istilik sistemi quraşdırılır. Qat-qat geyinmədən, rahat geyimdə evində oturacaq. Hətta evi təmir olunub, yeni mebellər, yataq dəsti alınacaq, kitab rəfi yığılacaq. Bunu edən isə nə dövlət, nə də hansısa məmurdur.

Biz bütün bunlara Azərbaycan xalqının sayəsində nail olduq. Qoy, kim nə istəyir desin. Əsas odur ki, Əlisa Nicatın üzü gülür, o özünü çox xoşbəxt hiss edir. Əlisa bəylə danışdım, deyir, kiminin əvvəli, kiminin sonu. Gec də olsa, bu günləri gördüyüm üçün xoşbəxtliyimin həddi-hüdudu



“Başqalarının halına canı yanmayan, yardım etmək, paylaşmaq duyğularından məhrum olan insanlar bu hissi anlamaz”

yoxdur. Həmçinin də insanlarımız yardım etmək xoşbəxtliyini yaşayır. İnsanlar yardım etmək fürsətindən yararlandıqları üçün məmnun qalıb. Həm yardım, həm də təşəkkür edirlər. Başqalarının halına canı yanmayan, yardım etmək, paylaşmaq duyğularından məhrum olan insanlar bu hissi anlamaz. Mənim tək istəyim Əlisa Nicatın yaşadığı həyata, üzləşdiyi problemlərə diqqət çəkmək idi. Yaşlı bir yazıçının halından nə reklam, nə də piar məqsədi güdürəm. Hamının yanaşması öz səviyyəsinə uyğundur. Kimisinin ”ayağı isti yerdədir”. Kimisi də rahat kabinetində oturub çirkli pulları yuya-yuya fikirləşir ki, əsl yazıçı acından ölməli, soyuqdan donmalıdır. Onların gözündə ədəbiyyat adamının obrazı dişləri tökülmüş, üst-başı nimdaş, cibində qara qəpiyi olmayan insandır. Xeyr, əsl yazıçı belə olmamalıdır. Azərbaycan kimi bir dövlətin, xalqın ziyalısı şah kimi yaşamalıdır. Bizim buna həm maddi, həm mənəvi haqqımız çatır axı?!

**- Siz xalqın böyüklüyündən bəhs etdiniz, amma yazıçıların, şairlərin bu cür ehtiyac içərisində yaşamasına görə xalqı ittiham edənlər də var. Hesab edirlər ki, cəmiyyət dövlətdən ev alan şairə ”saray şairi” damğası vurur, hansısa vəzifəli şəxsin maddi yardım etdiyi yazarı sıxışdırırlar ki, ölərdin, amma məmurun yardımını qəbul etməzdin...**

- Bu düşüncədə olan insanlar var. Amma anlamıram. Bu təfəkkür haradan yaranır ki, yazıçı mütləq ac olmalıdır ki, insanlar onu müdafiə edib, qəhrəmana çevirsin. Bu cür düşünən adamların özləri də bilmir ki, nə istəyirlər.

Yazıçıların qiyməti onların yaratdığı mətndədir. Onlar nə ictimai, nə siyasi fəaliyyətlə məşğul olurlar.

**- Azərbaycan Yazıçılar Birliyinin katibi Çingiz Abdullayev yazıçı Əlisa Nicatın durumu ilə bağlı vəziyyətə münasibət bildirib. Deyib ki, Anar 84 yaşında gedib bir-bir evləri gəzməlidir? Kim müraciət edirsə, kömək etməyə çalışırıq...**

- Heç kim Anardan bir-bir evləri gəzməyi gözləmir. Niyə Anarın adını hallandırır ki? Çingiz Abdullayev özü gedib maraqlana bilməz? Nə olar? Çingiz müəllimin kostyumunun üstünə tozmu qonar!? Arada bir qocaman yazıçıların vəziyyəti ilə maraqlansın, onların yaşadığı evə baş çəksin, maddi durumları ilə maraqlansın. Azərbaycanın ədəbiyyat xadimlərinin hamısı Çingiz Abdullayev kimi imkanlı deyil axı? Yazıçılar Birliyinin üzvlərinin də elə böyük əksəriyyəti kasıb ailədə böyüyən insanlar olub. Anar gedə bilmir, katiblərdən, məsul şəxslərdən biri gedib Əlisa Nicatın halını soruşardı.

**- Əlisa Nicatın ”270 manat pensiya alıram, 200 manat da tərcümələrimə görə Şahbaz Xuduoğlu verir” açıqlamasından sonra tənqid hədəfinə çevrildiniz ki, Əlisa kimi yazıçı tərcüməçiyə 200 manat yox, daha çox qonorar verilməlidir...**

- Əlisa Nicat yaşlı adamdır. Onun əvvəlki kimi tərcümə etmək potensialı yoxdur axı. Nəşriyyat işlədiyi tərcüməçilərlə əvvəldən razılaşır və qonorar müəyyənləşdirir. Əlisa Nicat isə sabit olaraq ”Qanun” Nəşriyyatı üçün tərcümələr etmir. Biz elə bu məbləği bir növ ona yardım məqsədi ilə ayırırıq. Uzaqdan böyük görünməklə deyil. ”Qanun” Nəşriyyatının o qədər yüksək gəliri yoxdur ki, imkanı zəif olan bütün yazıçı və şairlərə maddi yardım etsin. Məni tənqid edən adamlar sanki kosmosda yaşayır. Guya bilmirlər ki, Azərbaycanda kitab bazarı hansı vəziyyətdədir. Kitab satışından verilən qonorar mövcud şərtlərə uyğunlaşdırılır. Yenə də pis- yaxşı, yazıçılara gün ağlayan ”Qanun” Nəşriyyatıdır. Bizə irad bildirənlər çoxmu böyük yardımlar edirlər!?

**Şəymən Bayramova**

# Bakıda ətin qiyməti yenə bahalaşacaq

## Yaxın zamanlarda fermerlər özləri şəhərə məhsul gətirməyəcək



**Paytaxtda ətin qiymətinin kəskin bahalaşması Milli Məclisdə də müzakirə predmeti olub. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında millət vəkili Elnur Allahverdiyev bölgələrlə müqayisədə paytaxtda ətin qiymətinin çox baha olmasından danışıb. Deputat Ağcabədi və Bərdə rayonlarında 8-11 manata satılan ətin paytaxta 18 manata gəlib çıxmasına məntiqi izah tapılmadığını bildirib: "Səhər tezdən ət topdan satıcılardan 8 manata alınır.**

Belə olan halda mənə maraqlıdır ki, niyə bu məhsul Bakıda 18 manata satılır? Ətin qiyməti hansı metodologiya ilə hesablanır? Bəlkə, həqiqətən də, ölkə daxilində hansısa rüsum var, biz bilmirik?". Millət vəkilinin sözlərinə görə, təkcə 2 ay ərzində ətin qiyməti 13 manatdan 15 manata, sonra isə 18 manata qalxıb.

Millət vəkili mövcud problemi qabardıb, lakin suallarına cavab almayıb. Həqiqətən də, sual yaranır ki, bölgələrdə 8-11 manata satılan ət paytaxta çatanadək başına nə gəlir ki, qiymət 16-18 manata yüksəlir? Qiymət yüksəlişi yoldamı baş verir, bazardamı, satış məntəqəsindəmi?

**İqtisadçı Əkrəm Həsənovla yaranmış vəziyyətə aydınlıq gətirməyə çalışdıq. O, bir neçə səbəbə toxundu:**

- Əvvəla onu deyim ki, ölkədə kənd təsərrüfatı məhsulları, o cümlədən heyvandarlıq məhsulları - ət inhisarda deyil. Bəlkə yaxın zamanda bu da olacaq, amma hələ ki bu sahədə inhisarçılıq yoxdur. Ətin qiymətini bazar müəyyən edir. Bununla belə ətin satış qiymətində baş verən bu böyük fərqlilik sual doğurur. Ətin ərsəyə gəlməsinə çəkilən xərclər var: yem, mal-qaranın bəslənməsindən tutmuş, işıq, istilik, baytar xərclərinədək. Bunlar hamısı fermerlərə, heyvandarlıqla məşğul olanlara aiddir. Mal-qaranın paytaxta gətirilməsi üçün alıcıların çəkdiyi xərclər isə daşınma xərcindən və bazarda satış üçün ödənilən xərclərdən ibarətdir. Burada rəsmi vergi rüsumu yoxdur. Heç bir rüsum tətbiq edilmir. Lakin məlum məsələdir ki, harada məmur varsa, orada əlavə xərclər var. Satış məntəqələrinin sahibləri satışa icazə üçün əlavə xərc ödəyir, ətin baytar nəzarətindən keçirilməsinə də xərc ödəyir, daşınma zamanı da əlavə xərclər ortaya çıxır. "Evləri köndələn yar"da deyildiyi kimi, "bu, "uçastkovı"nın payı, bu "revizor"un payı". Ona görə də satış qiymətində artım baş verir. Lakin yenə də başlanğıc qiymətlə son qiymət arasında ikiqat artıma heç cür izah vermək mümkün deyil. Fərq bu qədər böyük olmamalıdır. Varsa, deməli, satıcılardan yenə də hansısa əlavə xərclər, əlavə vəsaitlər tələb olunur. Yaxud da ümumi qiymət artımı fonunda ətin də qiyməti qalxır. Bəzən "süni qiymət" artımı terminindən istifadə edirlər. Qiymət artımı süni ola bilməz. Bir səbəb var ki, qiymət artımı baş verir. Hazırda demək olar ərzaq məhsullarının əksəriyyətinin qiymətində artım var. Deməli, ətin də qiyməti artacaq. Bir halda ki, adi makaronun kiloqramı 1, 50 qəpikdən 1.80 qəpiyə çatıb, ətin qiyməti niyə qalxmasın? Ümumi qiymət artımı baş verirsə, bu, özünü bütün məhsullarda göstərəcək. Bu, qaçılmazdır.

**İqtisadçı qeyd edib ki, bölgələrdə qiymətlər paytaxta nisbətən həmişə aşağı olub:**

- Bu da onunla bağlıdır ki, rayonda əhali az və çox dərəcədə əkinçiliklə, bostançılıqla, heyvandarlıqla məşğuldur. Kəndlinin kiçik də olsa müəyyən təsərrüfatı var. Həyətində toyuq-cücə bəsləyən bazardan baha qiymətə nə toyuq alasıdı, nə də ət. Paytaxtda isə bu məhsullar qiymət fərqinə məruz qalır, çünki paytaxta hazır məhsul gəlir. Ümumiyyətlə, hesab edirəm ki, yaxın zamanda fermerlər özləri şəhərə məhsul gətirməyəcək, çünki bu, onlara sərf etməyəcək. Məhsulu yerindən topdansatış qiyməti ilə bu işlə məşğul olanlara satacaq, həmin şəxslər də məhsulun şəhərə daşınmasıyla məşğul olacaqlar. İndi də bu var, çox adam məhsulu qapıdan, həyətdən satır, lakin gələcəkdə kütləvi hal alacaq.

**Məlahət Rzayeva**

# Laçın dəhlizinə mütləq Azərbaycan nəzarət etməlidir

## Oradan gah silahlar, gah təxribatçı qrup, gah da texnika keçirilir

**Milli Məclisin deputatı Fəzail Ağamalı parlamentin dünənki plenar iclasında çıxış edib. Parlament üzvü qeyd edib ki, Azərbaycan Laçın dəhlizində öz postunu yaratmalıdır: "Qarabağda bu gün fəaliyyət göstərən sülhməramlı qüvvələr, onun komandanı elə bir cəsarət sahibi deyil ki, özbaşına hərəkət etsin. O, bütün təlimatları Rusiyanın hərbi-siyasi rəhbərliyindən alır.**



Azərbaycanın təbii sərvətləri daşınır, onun əvəzində isə Azərbaycan ərazisinə - Qarabağa silahlar gətirilir. Bunu edənlər kimdir? Erməni separatçıları, erməni faşistləri. Bunu himayə edənlər kimlərdir? Azərbaycanın ərazisində müvəqqəti fəaliyyət göstərən sülhməramlı qüvvələr var... Əslində onlar sülhməramlı deyil, onlar ermeniyanlı, ermənipərəst qüvvələrdir. Biz heç bir tərəddüd etmədən Laçın dəhlizində öz nəzarət postumuzu yaratmalıyıq. Mətbuatdan bəlli olur ki, İrandan dünən 14 nəfər şəxsiyyəti, əməli, niyyəti bəlli olmayan şəxs gəlib Xankəndiyə. Ehtimallar var ki, bunlar İranın xüsusi xidmət orqanlarının əməkdaşlarıdır. Bunlar nəyə görə gəliblər?".

**Laçın dəhlizinə nəzarətin əldə edilməsinin vacib olduğunu deyən siyasi şərhçi Turab Rzayev "Şərq"ə vurğulayıb ki, ən azından Rusiya ilə ikili şəkildə hayata keçirilməlidir:** "Orada Azərbaycan gömrük postu, miqrasiya və sərhəd xidməti yerləşməlidir. Biz demirik dəhliz bağlansın. Amma Azərbaycanın nəzarəti olmalıdır. Elə bu gün 14 nəfər İran təxribatçısının Qarabağa ermənilərə təlim vermək üçün gəldiyi məlum olub. Onlar xüsusi məşq toplantıları keçirərək, həm silahlı, həm də silahsız döyüşü tədris edirdilər. Həmin 14 nəfərin 12-si isə Əhvaz vilayətindəndir. Əhvaz şəhərində erməni dili də istifadə olunur. Çünki ora ermənilərin məskunlaşdığı yerdir və İran kəşfiyyatının təlim-məşq bazalarından biri də bu şəhərdə yerləşir. Əhvazın, eyni zamanda İranın neft sənayesinin mərkəzi olduğunu nəzərə alsaq, Azərbaycanın neft sənayesinə qarşı hansısa təxribatları da nəzərdə tutula bilər. Burada da "sülhməramlılar necə olub 14 nəfər xarici vətəndaşı buraxıb ki, onlar Xankəndidə ermənilərə təlimat keçir" sualı yaranır. Həmçinin İran da bunlara görə tutarlı cavab verməlidir.

Ümumiyyətlə, bu cür təxribatların gələcəkdə olmaması üçün sərhəddə nəzarət məntəqəsi yardılmalıdır. Əks halda biz belə hadisələrin çox şahidi olacağıq. Oradan gah silahlar, gah təxribatçı qrup, gah da texnika keçirilir.

Bununla bağlı müraciətlərimizə baxmayaraq, İran və Rusiya tərəfindən heç bir rəsmi qurum cavab vermir. Rus sülhməramlıları isə işlərini yerinə yetirmək əvəzinə toponim oyunu oynamaqla məşğuldur. Əgər öhdəliklərini yerinə yetirə bilmirlərsə, nəzarəti Azərbaycan tərəfinə verməlidirlər".

**Nihat Müzəffər**

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Nazirlər Şurasının Lodzda keçirilən 29-cu iclası çərçivəsində Norveç Krallığının xarici işlər naziri Anniken Huitfeldt ilə görüşüb. C.Bayramov həmkarını Ermənistanın yaratdığı mina təhlükəsi ilə bağlı məlumatlandırıb.**

Görüşdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, həmçinin regional və beynəlxalq vəziyyət müzakirə olunub.

C.Bayramov iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından keçən 30 il ərzində müxtəlif istiqamətlərdə, xüsusilə də energetika, neft və qaz sənayesinin inkişafı sahəsində münasibətlərin inkişaf etdiyini bildirib.



# Ceyhun Bayramov həqiqətləri usanmadan dünyaya çatdırır

## Bakı diplomatik arenada XİN səviyyəsində dayanmadan çalışmalıdır

Nazir həmçinin postmünaqişə dövründə regional vəziyyət, Azərbaycanın bölgədə sülh və quruculuq səyləri, Ermənistan tərəfinin təxribatları, 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirməməsi, o cümlədən mina təhlükəsi barədə qarşı tərəfə məlumat verib.

Hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə bildirib ki, istər Norveç, istərsə də başqa dövlətlərin və təşkilatların Azərbaycanın haqq davasına yekdil şəkildə dəstək verəcəyini gözləmək bir az sadəlövhlük olardı: "Çünki hər bir dövlətin öz maraqları var. "Həmin ölkələr Azərbaycanın məsələlərini həll edəcək" deyə bir gözləntimiz olmamalıdır.

Amma Ceyhun Bayramovun həqiqətlərimizi dünyada nüfuz sahibi olan ölkələrə çatdırması çox yaxşı haldır. Biz Vətən müharibəsində də gördük ki, Qarabağı nə BMT-nin 4 qətnaməsi, nə də digər ölkələr azad etdi.

Özümüz hər şeyi həll etdik və gerçəkləri dünyaya çatdırdıq. Əsas görməli olduğmuz iş həqiqətləri siyasi masalarda göstərməyə davam etməkdir.

Bakı diplomatik arenada XİN səviyyəsində dayanmadan çalışmalıdır. 2020-ci ildə şahidi olduq ki, hərbi əməliyyatlara başladığımız zaman heç kəs Azərbaycana qarşı addım atmağa cəsarət etmədi.

Ona görə ki, rəsmi Bakı həqiqəti dünyaya çatdırırdı və anti-Azərbaycan mövqeyində olan qüvvələr belə bunların qarşısında susmağa məcbur oldular. İndi də eyni prosesi davam etdirməliyik və ideal zaman yetişdiyində ermənilərə hərbi müstəvidə cavab verərək onların cılız iddialarını sonlandırmalıyıq".

**Nihat Müzəffər**

# Tibb müəssisələrinə fərqli vergi mexanizmi tətbiq olunur

## Millət vəkili Rəşad Mahmudov deyib ki, bu qeyri-bərabərlik aradan qaldırılmalıdır



**Parlamentdə tibb müəssisələrinə fərqli vergi mexanizmi tətbiq olunması məsələsi qaldırılıb. Millət vəkili Rəşad Mahmudov deyib ki, ölkəmizdə hazırda fəaliyyət göstərən tibb müəssisələri arasında bərabərlik təmin edilmir.**

Onun sözlərinə görə, tibb müəssisələri ölkəmizdə hazırda 4 şəkildə fəaliyyət göstərir: "TƏBİB-in nəzdində olan xəstəxanalar və tibb müəssisələri, Səhiyyə Nazirliyinin tərkibində olan Tibb Universiteti də daxil olmaqla, institutlar, özəl xəstəxanalar, bununla yanaşı, fərqli-fərqli nazirliklər nəzdində olan tibb müəssisələri var. Qanunvericilikdə olan dəyişikliklərə əsasən, əlavə dəyər vergiləri (ƏDV) arasında ciddi fərqlər var. Bir qurum ƏDV-ni 1faiz həcmində ödəyir, bir qurum özəl təşkilat kimi mənfəət vergisindən azaddır. Arada 1 faizdən 38 faizə qədər dəyişən ciddi fərqlər əmələ gəlir. Bu fərqlər ölkədə bu gün görülən işə ciddi maneələr yaradır. Bu, dövlət-özəl tərəfdaşlığına ciddi maneədir. Ona görə mən çox xahiş edirəm ki, bu fərqləri aidiyyəti qurumlar aradan qaldırsın, bu məsələnin həll yolları tapılmalıdır. Ölkənin müvafiq orqanı tərəfindən səlahiyyət verilən bütün qurumlar eyni fəaliyyətlə məşğul olursa, onlara tibb müəssisəsi adı altında qiymət verilsin".

*İqtisadiyyat nazirinin müavini Elnur Əliyev isə qeyd edib ki, səhiyyə müəssisələri ilə bağlı konkret müzakirələr aparmaq istəyən olsa, İqtisadiyyat Nazirliyi buna hazırdır.*

**İsmayıl**

# "Naxçıvanla bağlı bütün suallarınıza cavab tapacaqsınız"

## Elxan Şükürlü: "Gedin, "BABİL YANARKƏN: Səddamın İraqı və bir çöküşün hekayəsi"ni oxuyun"

**Naxçıvan Muxtar Respublikası ərazisində ilk dəfə olaraq Bakıdakı market şəbəkələri fəaliyyətə başlayacaq. "Demokrat.az"ın əldə etdiyi məlumata görə, yaxın günlərdə Naxçıvan şəhərinin mərkəzindəki "Gənclik" kafesi adlanan binanın birinci mərtəbəsində məşhur market şəbəkələrindən biri ilk dəfə olaraq xidmət göstərəcək. Hazırda sözügedən binada mağazanın açılışına hazırlıq işləri görülür.**



Bütün market və restoran şəbəkələrinin Naxçıvanda fəaliyyət göstərməsinə yaradılan süni maneələr artıq aradan qaldırılıb. Qeyd edək ki, indiyədək Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun xüsusi göstərişi ilə heç bir market və restoran şəbəkələrinin, həmçinin taksi xidmətlərinin Muxtar Respublikada fəaliyyətinə icazə verilməyib.

Ümumiyyətlə, Naxçıvanda antikorrupsiya tədbirləri icra edilməyə başladığı gündən yerli əhalinin rahat nəfəs aldığı, gömrükdə insanların incildilmədiyi, sərbəst gediş-gəliş şəraiti yarandığı bildirilir. Naxçıvanda cərəyan edən hadisələrə, hətta əslən Naxçıvan torpağından olan politoloqlar, siyasətçilərin ehtiyatla yanaşdığı, fikir bildirməyə tələsmədikləri də hiss edilir. Bu da anlayışla qarşılanmalıdır. Mənzərə tam aydınlaşmadan irəli düşüb yanlış siyasi şərh verməkdənsə, gözləmə mövqeyi seçmək siyasətçi üçün mənf cəhət sayılmaz. Naxçıvandan gün ərzində müxtəlif məlumatların gəldiyi bir zamanda Ədalət Partiyası sədrinin müavini, siyasi şərhçi Elxan Şükürlü isə "Şərq"ə açıqlamasında baş verən proseslər barədə fikrini "mərkəzləşmə tədbirləri aparılır", söyləməklə ifadə etdi. Eyni zamanda əlavə etdi ki, Naxçıvanda hazırda cərəyan edən proseslər barədə "Babil"i çox xatırladan Naxçıvan" başlıqlı məqaləsində yazıb. Məqalədə E.Şükürlünün ona sual ünvanlayanlara, naxçıvanlı siyasətçiləri susmaqda qınayanlara cavabı budur: "Gedin, "BABİL YANARKƏN: Səddamın İraqı və bir çöküşün hekayəsi"ni oxuyun, bütün suallarınıza cavab tapacaqsınız. Bəla burasındadır ki, nə jurnalistlərimiz oxuyur, nə siyasətçilərimiz, nə də ölkənin idarəetməsində iştirak edənlər. Ümumiyyətlə, rasional və oxumağa həvəsli xalq olmadığımızdan, burnumuzdan uzağı görmürük və bizi rahatca istədikləri səmtə yönləndirə bilirlər, özümüz də özümüzü çox asanca tələyə salırıq. Oxuyan olsaydıq, görərdik ki, "Tanrının qapısı" mənasını verən Babil torpaqlarında Səddam dövründə yaşananlarla "Turan qapısı" adlandırılan, Azərbaycan dövlətçiliyinin tarixi beşiyi sayılan Naxçıvanda son 28 ildə yaşananlar arasında heç bir fərq olmayıb: təkcə idarəetmə üslubu, güc strukturları vasitəsilə ölkənin ən passionar əhalisinə tətbiq olunan nəzarət və sındırma mexanizmi eyni və oxşar deyil, hətta yol verilən səhvlər belə eynidir, bir-birinin təkrarı, bənzəridir...

Məsələn, gəncliyində çox ağır həyat yolu keçən, ancaq dövlət başçısı olduqdan sonra tamamilə fərqli - cah-cəlallı, dəbdəbəli bir həyat tərzi sürməyə üstünlük verən Səddamın ən böyük səhvlərindən biri bu idi ki, hakimiyyəti gücləndikcə, ona inanmış xalqı ilə yaxınlaşmaq əvəzinə, özüylə bir parçası olduğu xalqı arasında hədsiz dərin bir uçurum yaratdı, özünü seçilmiş və hamıdan üstün zənn etdi, üstəlik, qabiliyyətsiz və sərvətə həris qohum-əqrəbasını, xüsusən də bivec, eyş-işrətə meyilli oğlanlarını gətirib İraq kimi mürəkkəb ölkədə dövlət sükanının arxasına keçirdi, hamını, o cümlədən dövlətin qos-qoca nazirlərini, generallarını belə onların ayağı altına sərdi...

Bilməyənlərə deyim ki, Səddamın ilk nikahdan - öz dayısı qızı ilə evlilikdən iki oğlu, üç qızı olub. Heç bir xüsusi qabiliyyətləri ilə seçilməyən, günlərini Skandinaviyadan gətirdikləri qızlarla eyş-işrət və əyləncə mərasimlərində keçirən oğlanları Uday və Kusay yalnızca Səddamın oğlu olmaları faktına görə İraqın ən varlı, ən imtiyazlı və ən səlahiyyətli şəxslərinə çevrilmişdilər.

Səddam fiziki baxımdan çox yöndəmsiz, ancaq xaraktercə əzazil və psixopat olan böyük oğlu Udayı öz yerinə əsas varis olaraq hazırlayırdı deyə, bütün dövlət aparatını oğlunun iradəsinə tabe etdirmişdi. Hətta bir dəfə Uday İraqın maliyyə nazirindən öz şəxsi hesabına külli miqdarda pul keçirməsini istəmiş, çox riskli əməliyyat olduğundan, maliyyə naziri də bu tələbi rədd etmiş və məsələ böyüyüb Səddamın qulağına çatmışdı. Öz təyin etdiyi naziri qorumaq və talançı qohum-əqrəbasına da yerini göstərmək əvəzinə, Səddam nazirinə beləcə demişdi: "Uday sənin ağandır! Bunu heç vaxt unutma!"...

Səddamın oğlu Udayı qudurtması ona gətirib çıxarmışdı ki, o, istədiyi adamı yerindəcə güllələyir, hətta öz atasına qarşı çıxmaqdan belə çəkinmirdi. Məsələn, Səddam İraq Hava Yollarının baş direktorunun sarışın arvadı Samirəni çox xoşladığından, onu ərindən boşatdırıb, özü almışdı və bu, Udayda çox böyük qəzəb yaratmışdı. Bir gün Uday sərxoş olduğu bir axşam Misir prezidentinin xanımının olduğu tədbirə basqın edərək, Samirə ilə Səddamı tanış edən şəxsi elə oradaca güllələyib öldürmüşdü. Sonralar Uday hətta öz əmisini də ayağından güllələmiş, əmioğlusunun isə qolunu qırmışdı... Yəni Uday belə Uday idi...

İndi Naxçıvanda yaşanan hadisələrin də əsas qaynağı bizdə sayları daha çox olan "udaylar"dır. Bəlkə də vaxtında çap edilsəydi və Naxçıvan MR Ali Məclisinin sədri də biz naxçıvanlılara oxumaq üçün tövsiyə etdiyi kitablar siyahısına "BABİL YANARKƏN: Səddamın İraqı və bir çöküşün hekayəsi"ni oxuyub daxil etsəydi, hər şey indi tamam başqa cür olardı...".

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;**

# Qarabağa və Şərqi Zəngəzura investisiya qoyuluşu ilə bağlı müraciətlər artır

## Qeyri-neft sektorunun inkişafında kiçik və orta sahibkarlığın növbəti dövrdə də xüsusi paya malik olacağı gözlənilir

**Azərbaycanda 2021-ci ilin yekununda kiçik və orta biznes (KOB) subyektlərinin qeyri neft-qaz sektoru üzrə yaradılmış əlavə dəyərdə payı 27,5 faizə, qeyri-neft-qaz ixracında payı isə 2020-ci ilin yekunundakı 31,8 faizdən 59,8 faizə çatıb. Bunu Bakıda "KOB-ların gücləndirilməsi: İqtisadi diversifikasiya və yaşıl inkişaf" mövzusunda keçirilən toplantıda nazir Mikayıl Cabbarov bildirib. Nazir deyib ki, KOB-ların inkişafı bizim üçün prioritetdir.**

Çünki onlar istənilən ölkədə iqtisadiyyatın inkişaf tempini səciyyələndirir. Azərbaycan hətta SSRİ dövründə sahibkarlıqla bağlı bacarıqlarını çox yüksək səviyyədə nümayiş etdirməyə müvəffəq olub: "Azərbaycanda bizneslərin 99,6 faizi mikro, kiçik və orta sahibkarlıq subyektləridir. Ötən il bu kateqoriyadan olan bizneslərin dövriyyəsi 20 milyard ABŞ dollarına yaxın olub və ümumi biznes dövriyyəsinin 32 faizdən çoxunu, qeyri-neft-qaz ÜDM-nin isə 56,5 faizi təşkil edib. KOB-ların inkişafı bizim üçün prioritetdir. Çünki onlar istənilən ölkədə iqtisadiyyatın inkişaf tempini səciyyələndirir. Azərbaycan hətta SSRİ dövründə sahibkarlıqla bağlı bacarıqlarını çox yüksək səviyyədə nümayiş etdirməyə müvəffəq olub. Soruşa bilərsiniz ki, mərkəzləşdirilmiş və planlaşdırılan iqtisadiyyatda bu necə mümkün idi? Bu, qeyri-formal iqtisadiyyat olaraq fəaliyyət göstərib. Qeyri-formal iqtisadiyyat deyəndə biz mütləq qaydada qeyri-qanuni fəaliyyətləri nəzərdə tutmuruq. Sadəcə real sektoru tamamlayan tərəfləri qeyd edirik. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkənin inkişafına təsir göstərən böyük amillərdən biri ölkə ərazisinin işğalı idi və əhalinin bir qisminin qaçqına çevrilməsi idi, iqtisadiyyat bu amili nəzərə almalı idi. Çünki bu, iqtisadi tənəzzülə və ÜDM-nin azalmasına səbəb olan amil idi. Azərbaycan karbohidrogen ehtiyatlarının hasilatı sahəsində uğura nail olduqdan sonra vəziyyət dəyişdi. Bizim göstəricilərimizdə mənfəət artmağa başladı".

Xatırladaq ki, bir müddət əvvəl Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov deyib ki, Qarabağda biznes qurmaq üçün 1300-ə yaxın müraciət qeydə alınıb. Onun sözlərinə görə, müraciətlərin 460-dan çoxu xaricidir və 40-a yaxın ölkə daxil olmaqla geniş coğrafi dairəni əhatə edir: "Xarici müraciətlərin yarıdan çoxu Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin payına düşür. Onların sırasında Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Macarıstan yer alır. Daxil olmuş layihələr əsasən ticarət, xidmət, inşaat, sənaye, kənd təsərrüfatı, mədəniyyət, təhsil, nəqliyyat, logistika və digər sahələri əhatə edir. 2020-ci ildə Vətən müharibəsi nəticəsində Ali Baş Komandan cənab İlham Əliyevin iradəsi və rəşadətli ordumuzun qəhrəmanlığı hesabına qazanılmış qələbə isə əlaqələrimizin daha da inkişaf etdirilməsi və şaxələndirilməsi üçün yeni perspektivlər yaratmış oldu. Bu həm Zəngəzur dəhlizi vasitəsilə ölkələrimiz arasında yeni kommunikasiyaların yaradılması, həm də zəngin təbii ehtiyatlara, əlverişli coğrafi mövqeyə və böyük potensiala malik Qarabağ bölgəsinin inkişafında iştirakla bağlıdır. KOBİA Azərbaycan dövlətinin Qarabağa dair inkişaf konsepsiyasına uyğun olaraq işğaldan azad edilmiş ərazilərə investisiya qoyuluşu və biznes layihələrinin reallaşdırılması ilə bağlı məsələləri qarşıdakı dövrdə strateji fəaliyyət gündəliyinin prioritet istiqamətlərindən birinə çevirib. Bu məqsədlə hazırda tərəfimizdən 3 istiqamətdə işlər aparılır. Bunlar Qarabağın investisiya potensialının geniş auditoriya kütləsinə tanıdılması, azad olunmuş ərazilərdə bizneslərin yaradılması ilə bağlı müraciətlərin qəbulu və ilkin biznes infrastrukturunun qurulmasına dəstək göstərilməsidir". Qeyd olunub ki, agentlik tərəfindən qeyd edilən sahələrdə müvafiq tədbirlər həyata keçirilir. Hələ 2020-ci ilin noyabr ayında, Vətən müharibəsi başa çatdıqdan az müddət sonra "MUSİAD Expo 2020" sərgisində KOBİA-nın təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır" stendi fəaliyyət göstərib. Qarabağın investisiya potensialı beynəlxalq səviyyədə KOBİA tərəfindən ilk dəfə məhz qardaş Türkiyədə nümayiş olunub. Qələbədən dərhal sonra KOBİA Qarabağda biznes qurmaq istəyən sahibkarların, o cümlədən xarici iş adamlarının biznes layihələrinin qəbuluna başlayıb. Müraciətlərin intensivliyi və həcmi yerli və xarici investorların Qarabağda biznes fəaliyyətinə marağının yüksək olduğunu göstərir.



**Millət vəkili Vüqar Bayramov "Şərq"ə açıqlamasında deyib ki, kiçik və orta sahibkarlığın inkişafı Azərbaycan üçün prioritet məsələdir. Deputatın sözlərinə görə, kiçik və orta sahibkarlıq rəqabətin gücləndirilməsi, məşğulluğun təmin edilməsi, digər tərəfdən isə innovasiyanın qeyri-neft sektoruna cəlb edilməsi baxımından vacibdir:** "Xüsusən son illər KOB-ların daha yaxından dəstəklənməsi müşahidə olunur. KOBİA-nın yaradılması kiçik və orta sahibkarlıqla bağlı siyasətin daha sistemli və ünvanlı şəkildə həyata keçirilməsinə imkan yaratdı. Bu da təbii ki, KOB-ların inkişafı üçün həm texniki, həm maliyyə mənbələrinə çıxış imkanını artırdı. Qeyri-neft sektorunun inkişafında kiçik və orta sahibkarlığın növbəti dövrdə də xüsusi paya malik olacağı gözlənilir. Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə, Avropa İttifaqında Ümumi Daxili Məhsulun 65 faizi, məşğulluğun 62 faizi KOB-ların payına düşür. Bu kontekstdən də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kiçik və orta sahibkarların dəstəklənməsi, investisiya qoyuluşunun cəlb olunması da prioritetdir. Bununla bağlı müraciətlər də çoxalmaqdadır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# İt qorxusundan ölən uşaq...

## Stres bütün xəstəliklərin üzə çıxmasında, ağırlaşmasında böyük gücə malikdir

**"Qorxudan öləcəkdim" ...bu sözə gündəlik həyatımızda tez-tez rast gəlirik, amma mahiyyətinə önəm vermirik. Ətrafımızdakı insanların (bəzən elə özümüzün) keçirdiyi həyəcan və ya stres duyğusunu şişirtmək məqsədilə işlətdiyi adi bir ifadə kimi görürük. Amma heç də belə deyilmiş. Doğrudan da qorxudan ölmək olurmuş. Bəs necə?! 13 yaşlı Gültəkin kimi...**

Görünür, küçə itlərinin hücumuna məruz qalan qızcığazın körpə ürəyi bu qorxuya tap gətirə bilməyib.

Bədbəxt hadisə Qubanın İkinci Nügədi kəndində baş verib. Kənd sakininin həyətinə daxil olan küçə itləri evin qızı 2009-cu il təvəllüdlü Gültəkin Orucovanın üstünə hücum edib.

İt qızı tutmasa da, yeniyetmə çox qorxub. Yaxınlarının dediyinə görə, qız bundan sonra gizli xəstəlik keçirib və hadisədən sonra səhhəti kəskin pisləşib. O, əvvəlcə Qubadakı xəstəxanaya çatdırılıb, daha sonra Bakıya gətirilib və ötən gün paytaxtdakı tibb müəssisəsində vəfat edib.

**Psixoloq Narınc Rüstəmovanın "Şərq"ə açıqlamasına görə, qorxu bir təhlükə və ya təhdid anında hiss edilən bir gərginlik, bu vəziyyətdən qaçma, yaxud da mübarizə aparma ilə əlaqəli, ürək döyüntüsü, əzələlərdə gərginlik və s. hisslərlə özünü büruzə verən psixoloji həyəcan halıdır:** "Stres zamanı vücudumuz adrenalin və digər hormonlar ifraz edir. Bu hormonlar isə vücudumuza bir çox şəkildə təsir edir. Məsələn, ağciyərlərimiz genişlənir, göz bəbəklərimiz böyüyür, ürək daha sürətlə döyünür. Bu da vücudumuzdakı qan dövranını sürətləndirir. Qorxduğumuz bir şeydən qaçdığımız zaman vücudumuz daha çox enerjiyə ehtiyac duyur. Əslində bunu müsbət hal kimi qiymətləndirə bilərik. Ancaq qeyd etmək lazımdır ki, ürək problemi yaşayan insanlar üçün bu, ölümcül hal ola bilər. Şiddətli stres zamanı qan ürəyə və beyinə eyni zamanda çata bilmir. Bu da infarkt riskinin artmasına səbəb olur. Qorxudan ölüm halları ürək problemi, menopoz yaşayan orta və yaşlı qadınlarda daha çox müşahidə olunur. Ümumiyyətlə isə stres bütün xəstəliklərin üzə çıxmasında, ağırlaşmasında böyük gücə malikdir. Qorxu halları bəzən insanlara sadə gələ bilər. Məsələn, bir insanın itdən, pişikdən, həşəratdan və ya toyuqdan qorxması qəribə gələ bilər, hətta bəzən insanlar bunu yumor hissi ilə qarşılayırlar. Ancaq qeyd etmək istəyirəm ki, bu, həmin şəxs üçün travmatik, ağır bir problemdir. Bu qorxu fobiya şəklində yaşanır və insan onu beynində dəhşətli bir hala gətirir ki, bu, bəzi hallarda ölümlə nəticələnir. Ona görə də əgər uşaq yaşlarından qorxu halları müşahidə edilirsə, valideynlər bu məsələyə ciddi yanaşmalıdırlar. Məsələn, Gültəkindəki itdən qorxu görünür ki, ilk dəfəyə məxsus bir hal deyil, bu onda əvvəldən var imiş. Qeyd etdiyim kimi, övladında bu halı görən valideynlər zamanında müdaxilə etməli, bunu arxa plana atmamalıdırlar. Lazım gəlsə mütəxəssis dəstəyi də almalıdırlar, əks halda belə qorxu halları gələcəkdə acı nəticələrlə bitə bilər".

Qeyd edək ki, Azərbaycanla qonşu ölkələrdə də küçələrdə sahibsiz itlərin sayı çox olsa da, onların demək olar, əksəriyyəti peyvəndlənib və birkalanıb. Bununla da insanlar, xüsusilə də azyaşlı uşaqlar küçədə təhlükəsiz şəraitdə heyvanların əhatəsində gəzə, hətta ehtiyat etmədən oynaya bilir. Azərbaycanda isə küçə itləri həm paytaxt, həm də rayon sakinləri üçün çox ciddi, həyati əhəmiyyətli narahatlıq yaradır. Xüsusən də səhər tezdən və hava qaralandan sonra küçə itləri insanlar üçün təhlükə mənbəyinə çevrilir.

*"We want to live too" (Biz də yaşamaq istəyirik!) heyvan sığınacağının sahibi Nailə Rüstəmli "Report"a deyib ki, bütün inkişaf etmiş Avropa ölkələrində sahibsiz küçə itlərinin birkalanması mütləq şərt vəziyyətinə gəlib:* "Birkalanma icra orqanlarının üzərinə götürəcəyi işdir. Lakin bunu bacaran ekspertlərlə birlikdə iş görülməlidir". Türkiyədə hər bələdiyyənin öz veterenar mərkəzi var. Həmin mərkəzlərdən hər icra orqanının ərazisində olması mütləqdir və orada cərrahbaytar bu işlə məşğul olmalıdır. Hələ də görünən odur ki, ölkədə birkalanan sahibsiz küçə itlərinin sayı azdır".

**O qeyd edib ki, küçə itlərini güllələyib öldürməklə onların sayını azaltmaq mümkün deyil:** "Ən sivil yol itlərin birkalanmasıdır. Təbii ki, iş təkcə birkalanma ilə bitmir. İtlər ilk olaraq sterilizasiya edilməli, balavermə qabiliyyətləri dayandırılmalı, quduzluq iynəsi vurulub birkalanmalıdır. Həmin it əvvəlki həyatından fərqli yaşayır. İtlərdə insanlara aqressiya adətən çoxalma instinkti ilə yaranır. Bu funksiya dayandıqdan sonra itlərdə aqressiya olmur. Quduzluq iynəsi də vurulduğundan aqressiyaları demək olar, 70 faizə qədər azalır. Bu da onların təhlükəsiz olması deməkdir".

**Şəymən**

# Səbrimizi sınağa çəkmək istəyirlər

## Elçin Mirzəbəyli: "Gözləyirlər ki, günün birində qapını-bacanı qapadaq və Andreylə Rubeni gəldikləri yerə "göndərək"?!"

**"Rusiya sülhməramlılarının ermənilərlə "işbirliyində" olduqları, missiyalarına qazanc mənbəyi kimi baxdıqları kimsəyə sirr deyil". Bu sözləri siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Analitik qeyd edib ki, "sülhməramlı"ların bu mərəzi ta bineyi-qədimdən qalıb: "Xalqımız Rusiya hərbçilərinin və "çinovnik"lərinin bir xeyli hissəsinin rüşvət və eyş-işrət sevdasına yaxşı bələddir.**



Uzaq tarixdə, yəni çar Rusiyası dönəmində bunu pristavların və irili-xırdalı məmurların, sovet dövründə, xüsusilə də şər imperiyasının süqutu ərəfəsində Arkadi Volskilərin timsalında sınaqdan keçirib. İndi də Rusiya sülhməramlılarının komandanı general-mayor Andrey Volkovun və tör-töküntülərinin əməllərində müşahidə etməkdədir. Əslində general-mayor Volkov sülhməramlıların komandanı təyin ediləndə dalağım sancmışdı. Məsələ burasındadır ki, Andrey Volkov Suriyada, Türkiyə ilə həmsərhəd Afrin bölgəsində dislokasiya olunan hərbi kontingentə rəhbərlik edib. Yəni vəzifəsi PKK və YPG terrorçularını himayə etməkdən, Türkiyəyə qarşı təxribatlar törətməkdən, silah satmaqdan ibarət olub. İstisna etmirəm ki, Volkov Suriyadakı missiyasını, müəyyən korrektələr etməklə bu gün də Azərbaycan torpaqlarında davam etdirir. Biznesmen-emissar Ruben Vardanyanın sülhməramlıların müvəqqəti səlahiyyət zonasına daxil olan Azərbaycan ərazilərinə "atılması"ndan sonra isə Volkovun iştahı daha da açılıb və görünür, geriyə sələflərindən daha çox "qənimətlə" qayıtmaq həvəsi onu bir xeyli "cəsarətləndirib".

**E.Mirzəbəyli vurğulayıb ki, Azərbaycan Müdafiə Nazirliyi son günlər bir neçə dəfə toponimlərimizin erməniləşdirilməsi ilə bağlı etirazını dilə gətirib:** "Lakin nə Volkovun "pulyuyan Ruben"lə birgə açdığı "piştaxta"sından, nə də Rusiyanın müvafiq dövlət qurumlarından səs, səda çıxmayıb. Sanki "qurbağa gölünə daş atıblar". Azərbaycan xalqının öz toponimlərinə kifayət qədər həssas yanaşdığını Rusiyada kifayət qədər yaxşı bilirlər. Andrey Volkov da bilməmiş deyil, şübhəsiz. O zaman bir neçə dəfə təkrarlanan irada və bütövlükdə Azərbaycan xalqının etirazına münasibətdə nümayiş etdirilən etinasızlığın, sonsuz sükutun səbəbi nədir? Səbrimizi sınağa çəkmək istəyirlər, yaxud gözləyirlər ki, günün birində qapını-bacanı qapadaq və Andreylə Rubeni gəldikləri yerə "göndərək"?! Səbrimiz çoxdur, amma sonsuz deyil".

**İsmayıl**

# Armen Sarkisyan muzdlu dəstə yaradır!

## Ukrayna savaşından sonra bu dəstədən Azərbaycana qarşı da istifadə oluna bilər

**"Ukrayna kəşfiyyatının və ABŞ-də olan qaynaqların bildirdiyinə görə, cinayətkar Armen Sarkisyan Ukraynada savaşmaq üçün muzdlu dəstə yaradır".**

Bu sözləri millət vəkili Sahib Alıyev bildirib.

Parlament üzvü qeyd edib ki, sözügedən muzdlu dəstəni Rusiyanın erməni mənşəli milyarderi Samvel Karapetyan maliyyələşdirir: "Ruben Vardanyanın Qarabağdakı funksiyası təqribən onlarınkına oxşayır. Sadəcə, o, öz təxribatlarını özü maliyyələşdirməlidir".

Ermənistanın tarixində muzdlu dəstələrin çox olduğunu deyən siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə söyləyib ki, bu təşkilatın Ukrayna savaşından sonrakı müddətdə Azərbaycana qarşı vuruşdurulması ehtimalı da istisna deyil: "Vaxtilə Abxaziya məsələsində Baqramyan batalyonu fəal iştirak etmişdi. Onlar da muzdlu dəstənin başqa formasıdır. Maraqlısı budur ki, ermənilərin yaratdığı dəstələr amansızlığı ilə seçilib. Hətta Rusiyanın yaxın şərqdəki fəaliyyətində, bölgənin erməni camaatından muzdlu dəstə yaratdığı barəsində də söyləntilər var.



Bu dəstəni isə daha amansız işlərdə istifadə edirdilər. İndi Rusiyanın Ukrayna müharibəsində Karapetyanın maliyyəsi ilə belə bir muzdlu qrup yaratması heç də təəccüblü deyil.

Çünki Kremlin ordu rezervləri tükənir və Yaxın Şərqdən belə muzdlu dəstə gətirmək istəyir. Bu cür dəstələr müəyyən müddət yerin altına çəkilsə də, lazım olduqda yenidən istifadə edilir. Biz buna ASALA terror təşkilatından da şahid olmuşuq.

Bu təşkilatın ləğv olunduğu açıqlansa da, bu gün belə ASALA modelində yarım hərbi və siyasi qruplaşmalar yaradılıb. Digər tərəfdən bu təşkilatın Ukrayna savaşından sonrakı müddətdə Azərbaycana qarşı vuruşdurulması ehtimalı da istisna deyil.

Ona görə ki, Vətən müharibəsi zamanı ordusu sıradan çıxan Ermənistanın da muzdlu dəstələrə ehtiyacı yaranıb. Başqa bir məsələ isə rus sülhməramlılarını bölgədən çıxara bilmədiyimiz təqdirdə, bu cür dəstələrin Qarabağa gətirilərək bizə qarşı qoyulmasıdır. Buna isə heç kəs zəmanət verə bilməz".

**Nihat Müzəffər**

# Ürəklərə nüfuz edən səs



**Ötən əsrin ortalarında qonaq-qaralı Bakımıza Fransadan daha bir müsafir gəlir. Adı Mark idi - Mark Lopuyt. Ölkəmizə gəlməyinin səbəbi Azərbaycan muğamlarına olan marağı idi. Arayıb-axtarıb Ağakərim Nafiz adlı xanəndəni ona nişan verirlər. Şirvan muğam məktəbinin yetişdirməsi elə zümzümə etmişdi ki, Mark adlı qonaq Fransadakı dostlarıyla əlaqə saxlayıb Azərbaycanda istedadlı bir sənətkarla tanış olduğunu əlüstü onlara xəbər verir. Əlqərəz, Ağakərimi də, ailəsini də razılaşdırıb düz Parisə yola düşürlər. Ağakərim bəy bir ay sərasər burada qalır. İkinci dəfə bu ölkəyə səfər edəndə əsrarəngiz İtaliyaya aparırlar onu. Gənc xanəndənin bəxti üzdə imiş. Azərbaycan muğam ifaçılığının həvəskarları çıxmışdı qarşısına. Daha sonralar İspaniya, İsveçrə... Get-gedə bu qastrolların çoğrafi siyahısı daha da genişlənir.**

2001-ci ildə Fransada növbəti qastrolu zamanı Ağakərim bəyin ”Azerbaidjan: Chants du Caucase” adlı muğam diski buraxılır. Bu diskin işıq üzü görməsində fransız udçalan, Azərbaycan xanəndəsi Ağakərim Nafizin səsinin də, özünün də vurğunu olan həmin Mark Lopuytun böyük rolu olub. Sonralar...

Yaxşısı budur, söhbətimizə əvvəldən başlayaq. Lap əvvəldən - Kiçik Qaladərəsi kəndindən.

***

Şirvan elində, Şamaxı torpağının Kiçik Qala dərəsi kəndində bir oğlan uşağı böyüyürdü. Yaşıdlarından fərqli olaraq heç də adi idman oyunlarıyla məşğul olmurdu. 12-13 yaşlı oğlanlar nəylə maraqlanırlar - futbol, voleybol oynayır, tennisə meyl salır, güləşə həvəs göstərirlər. Balaca Ağakərim isə Şamaxıdakı Xaqani adına Mədəniyyət evindən ayrıla bilmirdi. Mədəniyyət evindəki ab-hava daim onu buralara çəkir, mədəniyyət işçilərinin, musiqiçilərin, sənət adamlarının məşğuliyyəti, şirin söhbətləri onun uşaq qəlbini sevindirir, ehtizaza gətirirdi. Hələ balacalıqdan tarixi, əfsanə, rəvayət və dastanları, klassik və xalq ədəbiyyatını, folkloru mənimsəməsinə yardımçı olurdu. Bütün bunların müqabilində on üç yaşlı Ağakərimin də yavaş-yavaş səsi açılır, yeri gəldikcə etdiyi zümzümələri xanəndə və sazəndələri də cəlb eləyir, diqqətdən kənar qalmırdı.

Nəsibə xanım Bəybala bəy qızının ciyərparəsi olan bu uşağı atası heç də dəstəkləmirdi. Meşəbəyi Ağaisrafil bəy oğlunu öz davamçısı kimi böyütmək istəyirdi, xanəndə kimi yox. Elini, obasını sevən, yam-yaşıl meşələrini, bağ-bağatını, münbit torpaqlarını daha bərəkətli etmək yolunda canını belə əsirgəməyən bir oğul təki görmək onun böyük arzusuydu.

Ağakərim bəyin ata babası Əli bəy Quranı havacatla oxumağı bacarırdı. Yaxşı rəvayət, dastan danışmağı vardı. Məhəllə adamları yığışardılar başına, səhər açılana kimi qulaq asardılar ona. Balaca Ağakərim də bu məclislərdə oturub onları heyran-heyran dinləyər, doymaq bilməzdi bu söhbətlərdən.

Ağakərim İsrafilbəyli məhz belə böyüyüb, yaşa doldu: elini sevdi, sənəti hər şeydən üstün tutdu, işinə-peşəsinə haram qatmadı. Şan-şöhrət ardınca da qaçmayıb özünəməxsus bir dəst-xətlə el gözündə seçildi, ürəklərə nüfuz elədi - Ağakərim Nafiz Şirvani oldu. Bu ucalığa - sənət zirvəsinə qalxmağında isə Şirvanın bir çox məşhur xanəndələrinin köməyi oldu. ƏlƏlxüsus, Şamaxı Mədəniyyət Evinə ayaq açdığı dövrdə Ağalar Əhmədşah oğlundan muğamın min bir sirrinə bələd olmaq istəyi hədsiz idi.

**Ağakərim Nafiz xatirələrlə yaşayan sənətkardı. Xatirə dəftərinin ilk səhifələrində məhz görüb-götürdüyü, heç vaxt unutmadığı, daha doğrusu, unuda bilmədiyi xanəndələrin adları həkk olunub. Ağakərim bəy onları belə anır:**

- Çox xanəndədən dərs almışam. Ancaq əsl ustadım - ötən əsrin ortalarında Şamaxıda Ağalar adında xanəndə vardı, o olub. Allah ona rəhmət eləsin, çox cavan yaşlarında dünyasını dəyişdi. Ceyrançöldə maşın qəzasına düşəndə heç otuz yaşı da yox idi. Rəhmətliyin ifası ayrı aləm idi. Onda olan zil səsə, zənguləyə mən heç bir yerdə, heç bir kəsdə rast gəlməmişəm. Onun zəngulələri, boğazları ilahidəngəlmə bir şey idi. Muğamatı da çox gözəl bilirdi. Tale aman versəydi, onun sənətini tam qavraya bilsəydim, yəqin ki, indi tamam başqa cür xanəndə olardım.

Ağakərim Nafiz əlbəttə ki, sadəliyindən, təvazökarlığından bu ifadəni işlətdi. Əslində isə sənəti, ədəb-ərkanı baxımından öz ustadlarından heç də geri qalmırdı. O, müxtəlif musiqi festivallarının qalibi olmuşdu. Atası Ağaisrafil bəy də get-gedə oğlunun istedadına güvənməyə başlamışdı. Buna səbəb Ağakərimin Ağdamda keçirilən ”Xarıbülbül” müsabiqəsində qalib elan olunması idi.

Ağakərim müəllimin ürəyi dolu idi. Xatirələrinin bəzəyi, sənətinin incisi olan ustadlarını bir-bir yad edirdi:

- Ağalar bəydən sonra müəllimim rəhmətlik Aşıq Məmmədağa olub. Şagirdi olmasam da konsertlərdə onunla birgə çox oxumuşuq. Aşıq Məmmədağa da sərrast muğam ifaçısı idi.

Bilməmiş olmazsız, Şirvanda belə bir qayda var: aşıq mütləq muğamata dərindən bələd olmalıdır. Həm də aşıqlıq bu torpaqda o qədər böyük sənət sayılır ki, aşıq olmaq fikrinə düşənlər gərək bir neçə il ustad aşıq yanında xanəndəlik eləsinlər. Şirvanın bütün aşıqları bu sənətə xanəndəlikdən gəliblər. Elə buna görə də onlar muğamı çox gözəl bilirlər.

***

Ağakərim müəllimin dedikləri çox maraqlıydı, ona həvəslə qulaq asırdım. Amma mən həm də tələsirdim. Onun özü haqda daha çox bilgi toplamaq istəyirdim. ”Bəs siz özünüz?”, - deyə səbirsizliklə sual verdim.

- Öz ifama gəlincə isə onu deyə bilərəm ki, mən muğamı 100-150 il bundan öncə necə oxuyurdularsa, elə də ifa edirəm. Bu gün çoxları bilmir ki, keçmişdə muğamlarımız necə olub. Elə ona görə də bizim ifalarımız onlara qəribə görünür. Və bu ifaları hələm-hələm qəbul etmək istəmirlər.

- Qəbul etmək istəmirlər?

Bu, onların öz işidir. Elini-obasını sevən, mədəniyyətinə, incəsənətinə dəyər verən hər kəs fəxr edir ki, bir çox Avropa ölkələrində qastrol səfərlərində olub, Azərbaycan müğamını layiqincə təmsil edən xanəndə Ağakərim Nafizin yaradıcılığı qəlblərə necə nüfuz edib. Ağakərim bəyin bu təxəllüsə sahib olması da təsadüfi deyil.

Xanəndənin xarici ölkələrdə təşkil olunmuş konsertlərinin siyahısına nəzər salaq:

”Rusiyanın Arxangelsk vilayətində 4 konsert (1980),

Fransada, Paris də daxil olmaqla müxtəlif şəhərlərdə 8 konsert (2001). Bu qastrolu zamanı Fransada ”Azerbaidjan: Chants du Caucase” (”Azərbaycan: Qafqaz mahnıları”) adlı muğam diski buraxılıb.

Fransada, İtaliyada 6 konsert (2002),

Fransa, İsveçrə və Kanar adalarında 5 konsert (2003),

İran İslam Respublikasının paytaxtı Tehran şəhərində biri məşhur ”Sarayi-Bəhmən” Mədəniyyət sarayında olmaqla 2 konsert (2006),

Bundan əlavə, Zəncanda 3 konsert,

Amerika Birləşmiş Ştatlarında 4 gün ardıcıl Gün AzTV-də verilən konsertlər (2009).”

Göründüyü kimi, Ağakərim Nafiz bir xanəndə olaraq elimizdən çox-çox uzaqlarda daha artıq məşhur olub, nəinki öz vətənimizdə. Xarici ölkələrin böyük salonlarında geniş konsert proqramlarıyla uğur qazanıb. Həmvətənləri qarşısında isə vaxtilə Şəhriyar adına Mədəniyyət Sarayında bircə konserti olub. Fransada diski çıxıb, Azərbaycanda adi bir audiokasetini görən olmayıb. Artıq neçə ildir xarici ölkələrdə ustad dərsləri keçir. Öz respublikamızda isə xanəndə yetişdirməyə, şagird saxlamağa həvəs göstərmir. Buna səbəb nədir görəsən?

**Ustad sualımı belə cavablandırdı:**

- Təbliğ olunmağa heç vaxt ehtiyacım olmayıb. Mahnılarımı, təsniflərimi xalq artistlərindən tutmuş, gənc xanəndələrə kimi çoxları oxuyub, kasetlərində təsniflərimdən istifadə ediblər. Öz təsniflərimi belə təbliğ etməyə ehtiyac duymamışam. Heç kimə də hücum çəkib deməmişəm ki, məndən icazəsiz mahnılarımdan, təsniflərimdən niyə istifadə edirsiz?

Sənətkar sənətiylə tanınır. Keçmişdə nə kaset vardı, nə klip çəkdirirdilər. Amma o dövrün məşhur xanəndələri yüz illərdir xalqımız tərəfindən yad olunurlar. Məgər Cabbar Qaryağdıoğlunun dövründə belə şeylər vardı? Amma bu sənətkarın adı hələ də dillər əzbəridir.

İndiki müğənnilər istedadı oldu-olmadı, səsi vardı-yoxdu, bir də görürsən oxumağa başladı və heç üç ay keçməmiş kasetlərinin sayı artıq kəllə-çarxdadır.

**- Ağakərim müəllim, müasir gənclər televiziya və radioya ayaq açmağın da yolunu arayıb, araşdırıb, axır ki, tapıblar. Sizin kimi ağır-batman sənətkarlar üçünsə efirə çıxmaq müşkül məsələdir. Bəs buvaxtacan niyə barmaqarası baxmısız bu işə?**

- O dövrdə efirə çıxmaq üçün gərək ya filarmoniyanın, ya da televiziyanın solisti olaydın. Bu, mütləqdi. Yəni bölgə xanəndəsini efirə buraxmırdılar. Yaşlı nəslin yadında olar: ustad xanəndə vardı o vaxtlar - Əliyusif Qəniyev. Əslən Şamaxıdan idi, Kürdəmirdə yaşayırdı. Allah ona rəhmət eləsin. O boyda sənətkarı nə radioya yaxın buraxdılar, nə də televiziyaya.

**- Bəs, öz aramızdır, xarici ölkələrdə ustad dərsləri verən bir sənətkarın öz balalarımızı - muğam həvəskarlarını ustadsız qoyması nə dərəcədə düzgündür?**

- Bilirsiz, indi gənc xanəndələrə keçirilən muğam dərslərinin proqramı məni qane etmir. Muğam elə bir sənətdir ki, onu hər hansı dar bir çərçivədə öyrətmək olmaz. Muğamın imkanları böyükdür. Və hər bir xanəndə bu imkanlardan məhz öz qabiliyyəti çərçivəsində istifadə etməlidir. Dostlarım mənə təklif ediblər. Özüm razı olmamışam, elə bu səbəbdən.

**- Bəzi xanəndələr Şirvan muğam məktəbinin olmadığını, Şirvana muğamın Qarabağdan keçdiyini israr edirlər. Sizin bu barədə fikriniz hamıya maraqlı olar...**

- Bunu deyənlər böyük səhv ediblər. Qarabağ muğam məktəbinin yaranışı XIX əsrə təsadüf edir. Ondan əvvəl bu məktəbin olmasına heç bir mənbədə rast gəlməmişəm. Ancaq Şirvanda xanəndəlik məktəbinin kökü gedib çıxır Şirvanşahlar dövrünə. Şirvanşahlar daim dövrün məşhur şairlərini, xanəndələrini öz saraylarında saxlayıblar. Qarabağ xanəndələri isə Cabbar Qaryağdıoğlundan əvvələ gedib çıxmır.

**- Ağakərim bəy, tutaq ki, sizdən oxumanızı xahiş edirlər. Hansı muğamı ifa edərdiz?**

- Əvvəla, muğam sifariş edəndə xoşuma gəlmir, xətrimə dəyir. Çünki muğamlarımızın hamısı gözəldir. Onların arasında fərq qoymuram. ”Segah” şirinliyi ilə diqqəti cəlb edir. ”Mahur” ayrı bir xüsusiyyəti ilə xoşagələndir. O muğamı beş dəfə də oxusam, bir-birinə bənzəməz. İslam Rzayevin ”Şur” dəstgahı ayrı bir aləmdir.

Bir dəfə ustadım Əhməd Bakıxanovla birgə maşında harasa gedirdik. Özümdən asılı olmayaraq, pəsdən zümzümə edirdim. Araya çökən sükutu hiss edib, üzümü çevirdim. Ustadım gözlərini yumub, diqqətlə məni dinləyirdi. Çöhrəsindəki razılıq ifadəsi ondan xəbər verirdi ki, oxuduğum ”Humayun” xoşuna gəlib. Elə özüm də ”Humayun” muğamını ifa edəndə böyük ləzzət alıram.

***

Çox təəssüf ki, indi o sənətkarların heç biri yoxdu: nə Əhməd Bakıxanov var, nə Zülfü Adıgözəlov, nə Seyid Şuşinski, nə Mirzə Zülfüqar, nə də Yaqub Məmmədov... Sağ olanların da qədir-qiyməti yox...

Sevindirici haldır ki, Ağakərim Nafiz təkcə muğam ifaçılığıyla kifayətlənməyib. O həm də iki yüzə qədər təsnifin, altmışdan çox mahnının müəllifidir. Ədəbi fəaliyyətə hələ gənc yaşlarından başlayaraq ustad şair Məhəmməd Biriyadan klassik şeir üslubunu mənimsəyib. Ağakərim bəy klassik Azərbaycan-Türk və Şərq divan ədəbiyyatı ənənələrini XXI əsrdə davam etdirərək şeirlər yazır. Və XV-XIX əsrin dil üslubunu da öz şeirlərində qoruyub saxlaya bilir.

2017-ci ildə Ağakərim Nafizin 630 səhifəlik ”Divan”ı çapdan çıxıb. Onun 428 qəzəli bu ”Divan”a daxil edilib. Qəzəllərin dili klassik Azərbaycan qəzəl janrındadır. Münacatla başlayıb, qəzəllərlə tamamlanan kitab nəfis tərtibatla çap olunub. Bu ”Divan”a 500-dən çox şeiri daxil edilib. O cümlədən müxəmməs, müsəddəs, məsnəvi, müstəzad, təxmis, rübai və tərcümələr, saqinamələr, ibrətnamələr və sair bu ”Divan”da yer alıb.

***

Xanəndə-şair Ağakərim Nafizin 80 saxlama vahidi həcmində səs və video sənədi mühafizə üçün Dövlət Səs Yazıları Arxivinə təqdim olunub.

Ustad xanəndənin Dövlət Səs Yazıları Arxivinə şəxsən təqdim etdiyi sənədlər arasında ifaları, onun haqqında lentə alınmış televiziya verilişlərinin video yazısı, bəstələri, həmçinin şəxsi kolleksiyasında qoruyub saxladığı 30-cu illərə aid olan qiymətli qrammofon valları vardır.

Bu maraqlı sənədlər arasında 2001-ci ildə Fransada lentə alınmış ifası zamanı onu xalq artistləri - tarzən Malik Mansurov və nağara ifaçısı Natiq Şirinovla yanaşı, udda fransız Mark Lopuytun müşayiət etməsini əks etdirən sənədlər də var.

Onu da qeyd edək ki, 1997-ci ildə ”Azərbaycantelefilm” Yaradıcılıq Birliyində ”Naməlum səs” adlı sənədli film çəkilib. Filmi televiziyanın ən yaxşı rejissorlarından sayılan mərhum Nazim Abbasov ərsəyə gətirib. 2018-ci ildə isə AzTV-nin Mədəniyyət kanalında ”Yurd yeri” verilişi hazırlanıb.

Nə yaxşı ki, heç olmasa, bu film və verilişdə muğam həvəskarları Şirvan muğam məktəbinin özünəməxsus sənətkarı haqqında məlumat əldə edə bilirlər. Əfsuslar olsun ki, bu bilgilər heç də yetərli olmadığından daha geniş araşdırmalar tələb olunur. Ona görə ki, muğam ifaçılarımızın, o cümlədən haqqında bəhs etdiyimiz Ağakərim Nafiz Şirvaninin dəyərli yaradıcılığıyla daha dərindən tanış olmaq, onun bənzərsiz səsini, ifa zamanı etdiyi boğazları, zəngulələri öyrənməklə gələcək nəsillər hələ çox faydalana biləcəklər.

**Esmira Nəzərli**



## Azərbaycanın yeni uğurudur

### Çay mədəniyyətimiz UNESCO-nun Dünya İrs siyahısında yer alıb

**”Çay içmək və çay mərasimi bütün Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da ayrıca bir mədəniyyət növünə çevrilib”.**

Bunu ”Şərq”ə Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib. O bildirib ki, çay mədəniyyəti sosiallaşmaq, insanların bir-birinə mənəvi dayaq durması, problemlərin həll olunması, müzakirələrin rəmzidir. Çayla bağlı Azərbaycan ədəbiyyatlarında əsərlərə də rast gəlirik. Sözügedən mədəniyyət əlbəttə ki, daha çox çay içilən yerlərdən başlayıb.

Bildiyimiz kimi, bu içki cənub zonasında daha məşhurdur. Təkcə armudu stəkan, nəlbəki yox, yüzdən çox mürəbbə növünün hazırlanması, süfrədə düzülən və Novruz bayramı ərəfəsində bişirilən milli şirniyyat növləri çayla bərabər yeyilir. Çayın limon, süd, çərəzlərlə içilməsi, ən əsası isə elçilik, toy mərasimlərində çay içmək xüsusi bir əlamətdar hadisə kimi qeyd edilir. Əlbəttə, adıçəkilən mədəniyyətin UNESCO-nun Dünya İrsinə daxil edilməsi çoxdan gözlənilirdi. Düşünürük ki, yalnız çay yox, ölkəmizin milli mətbəxinin məşhur yeməkləri də bu irsdə olmalıdır. Çay mədəniyyətinin isə beynəlxalq təşkilatda yer alması Azərbaycanın yeni uğurudur”.

*Qeyd edək ki, çay mədəniyyəti Azərbaycanın təşəbbüsü ilə UNESCO-nun Dünya İrs siyahısına daxil edilib. Bu nominasiya UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 17-ci sessiyasında qəbul olunub.*

**Sücayət Mehti**

## İlon Mask dünyaya səs salacaq yenilik edəcək



**Altı ay ərzində insana ilk dəfə olaraq kompüter və telefondan əlləri olmadan istifadə etməyə imkan verən cihaz implantasiya ediləcək.**

Axşam.az xəbər verir ki, ”Bloomberg”in məlumatına görə, implantasiya İlon Maska məxsus ”Neuralink” neyrotexnologiya şirkəti tərəfindən həyata keçiriləcək.

Şirkət nümayəndəsi izah edib ki, mikroqurğu və elektrodlu naqillərdən ibarət çipin son hazırlıq işləri aparılır. Həmçinin, sıçrayış testi üçün insan kəlləsinin bir parçasını kəsəcək və cihazı beyinə implantasiya edəcək xüsusi robota ehtiyac duyulacaq.

İmplantasiya təcrübəsi uğurlu olarsa, Maskın özünün dediyinə görə, cihaz sayəsində insult keçirənlərlə kompüter vasitəsilə ünsiyyət qura biləcəklər. Eyni yaxşı məqsədlə ”Neuralink” onurğa beyni və göz implantları üçün çiplər hazırlayır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3423

(Əvvəli səh: 8-də)

# Azərbaycanda xərçəng xəstələrinin sayı sürətlə artır

## Radioloq bu müayinələri vacib hesab edir

**Mütəxəssisin sözlərinə görə, bəzi şişlər müəyyən ölçüyə çatana qədər heç bir əlamət vermir:**

”İnsan xərçəng olduğunu hiss etmir. Döş qəfəsinin rentgeni, qarın boşluğunun ÜSM müayinəsi, süd vəzilərinin USM və mamoqrafiyası, qanın analizi vacibdir.

Dünyanın bir çox ölkələrində onkoloji skrininqlər var, təəssüflər olsun ki, bizdə hələ yoxdur. Bunun üçün səhiyyə siyasəti, tibbi sığorta xidməti düzgün təşkil olunmalı, insanlara çatdırılmalıdır ki, xərçəngə qarşı nə etsinlər, necə yoxlansınlar. İcbari tibbi sığortada da, təəssüf ki, hazırda həddən artıq neqativ hallar, çatışmazlıqlar var. Müayinələrin pulsuz olduğu müəssisələrdə həddən artıq növbələr olur. Həm də xərçəng ilk başda əlamət vermir, ona görə şikayəti olmayan insanlar müraciət etmir”.

**A. Əliyev deyir ki, İcbari Tibbi Sığorta Agentliyi maariflənmə işlərini aparmalıdır, ildə1 dəfə vacib müayinələrin aparılmasını təşkil etməlidir:**

”35 yaşdan yuxarı əhali qrupunu xərçəngə görə skrininqlərə cəlb etmək lazımdır”.

Bəs mədə-bağırsağın kontrastlı maddə ilə rentgenində xərçəng aşkar olunurmu?



Radioloqun sözlərinə görə, mədə-bağırsağın kontrastlı rentgen müayinəsində bunu əksər hallarda lokalizasiyadan asılı olaraq görmək olur:

”Qida borusu, mədədə 1 sm-dən böyük törəmələrin aşkar edilməsi daha rahat olur. Amma həzm orqanlarının, yoğun bağırsağın xərçəngə görə ən dəqiq müayinə üsulu endoskopik müayinədir. Orda ən cüzi dəyişiklik görülə bilər. Əgər bir orqanda törəmə aşkar edilirsə, mültəq şəkildə bütün yanaşı orqanlar, toxumalar KT və MRT olunmalıdır. Bəzən şiş kiçik olsa da, onun uzaq metastazları olur. Limfa düyünlərdə, daha uzaq toxumalar, ağciyər, sümüklərdə və s. Hazırda xərçəng yaşa görə gəncləşib. Amma mənim təcrübəmdə daha çox orta və yaşlı insanlarda aşkarlanıb. Elə də olur ki, hətta uşaqlarda da şiş tapılır. Məsələn, biz 5 yaşlı uşağı illər öncə rentgen etdik, bir şey tapmadıq, amma KT olundu, qarın boşluğunda şiş tapıldı. Yenə də risk qrupu 50 yaşın üzəridir”.



# Yapon azarkeşlərdən örnək

Matçdan dərhal sonra zibil torbaları ilə simvola çevrildilər

**Qətərdə davam edən Dünya Çempionatında yapon azarkeşlər qeyri-adi davranış sərgiləyiblər. Ölkə millilərinin İspaniyaya qalib gələrək növbəti mərhələyə yüksəldiyi matçdan sonra azarkeşlər tribunaları təmizləyiblər.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, matç bitən kimi tribunada təmizlik başlayır. Amma təmizliyi xadimələr yox, azarkeşlər özləri edir.

Yaponiya təkcə Dünya Çempionatında çıxışı ilə deyil, həm də azarkeşlərinin nümunəvi addımları ilə yadda qalıb.

Yapon azarkeşlərin əlindəki mavi zibil torbaları turnirin simvollarından birinə çevrilib. Komandaları İspaniyaya 2:1 hesabı ilə qalib gəldikdən sonra azarkeşlər matçın keçirildiyi "Beynəlxalq Xəlif" stadionunda zibilləri tribunadan təmizləmək üçün qollarını çırmalayıb. Stadiondan qeyri-adi görüntülər əks olunub. Bu nümunəvi davranış əslində yapon azarkeşlər üçün yeni deyil. Oxşar davranışı DÇ-2018-in tribunalarından da əks olunub.

**Turan**

# Qızdırma salan dərmanlar qaraciyərin "evini yıxır"



**Çoxlarının zərərsiz, ən yaxşı dərman hesab etdiyi qızdırmasalıcılar - Parasetamol, İbuprofen. Nimesil və s. müntəzəm istifadə etdikdə qaraciyərə ciddi zərər verə bilər.**

"Medicina" xəbər verir ki, Tatyana Yermoxina qızdırmasalıcıların qaraciyərə toksiki təsirindən danışıb.

"Hətta xəstəlik zamanı gündə 2-3 dəfə parasetamol qəbulu qaraciyərə çox böyük dağıdıcı təsir edə bilər.

Parasetamol qəbulu zamanı düzgün dozaya ciddi əməl etmək lazımdır. Onun sutkalıq dozası gündə 2 qram olmalıdır.

Özbaşına aptekdən məsləhətlərlə həkimsiz alınıb içilən dərmanlar nə qədər yaxşı olsa da, sonradan vəziyyəti kəskinləşdirə, gizli prosesə səbəb ola bilər.




# "TikTok"da təhlükəli arıqlama trendi

## Həkimlər bunun ölümcül ola biləcəyini xəbərdar edir

**Son günlər "TikTok"da istifadəçilər tez-tez yeni arıqlama üsulu ilə qarşılaşır. İnsanlara ağızlarını lentlə yapışdıraraq yatmağı tövsiyə edən bu trend bəzi insanlar üçün ölümcül nəticələrə səbəb olur. Səhiyyə mütəxəssisləri ağızın bandla bağlanmasının təhlükələri barədə xəbərdarlıq ediblər.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, son günlər "TikTok"da gecə yatmazdan əvvəl ağzını bağlamağı ehtiva edən yüz minlərlə video paylaşılıb.

Ağız lenti istehsalçısı Somnifiks təklif edir ki, ağızı bağlamaqla insanlar burundan nəfəs alır, beləliklə, daha çox yağ yandırır və arıqlamağı sürətləndirir.

Sözügedən üsulu sınaqdan keçirənlər paylaşdıqları yazılarda ağız bantlamanın hava axınını yaxşılaşdırdığını, bədəni rahatladığını, xoruldamağı dayandırdığını və yuxunu tənzimləməyə kömək etdiyini iddia ediblər.

ABŞ-nin Cənubi Kaliforniya Universitetinin yuxu mütəxəssisi Raj Dasqupta, viral trendin ölümcül təhlükələrinə diqqət çəkərək, ağız bantlamanın nəfəs darlığına və ən pis halda boğulmaya səbəb ola biləcəyini söyləyib: "Yuxu apnesiniz varsa, ağzınızı yapışdırmaq çox təhlükəli ola bilər. Bu üsulun faydalarına dair məhdud sübutlar var və çox diqqətli olmalısınız. Bu üsulu sınamazdan əvvəl mütləq həkimlə danışmalısınız".

Digər tərəfdən, sağlamlıq mütəxəssisləri, yuxu apnesi ilə yanaşı, burnundan asanlıqla nəfəs ala bilməyən insanlar üçün ağız bantlamanın ölümcül ola biləcəyini vurğulayır.

Miçiqan Sağlamlıq Universitetinin pulmonoloqu Meqan Ako, "Burun tıxanıqlığınız və ya bilmədiyiniz bir burun xəstəliyiniz varsa, ağzınızı lentlə bağlasanız, hava axını məhdudlaşdıra və ya tamamilə dayandıra bilərsiniz", - deyə bildirib.

Digər tərəfdən, ağızdan yapışdırma yeni bir tətbiq deyil, lakin milyonlarla istifadəçinin təcrübələrini paylaşdığı "TikTok"da populyarlığı artıb. Bəzi videolar 500.000-ə qədər bəyənmə toplayıb və "ağızdan yapışdırmaq" etiketi 43 milyondan çox baxış qazanıb.

**Turan**







# Hülya Avşarın saatının qiyməti heyrətləndirdi



**Türkiyəli məşhur aktrisa Hülya Avşar bu dəfə taxdığı saatla gündəmə gəlib.**

**Bakupost.az xəbər verir ki, 59 yaşlı aktrisanın "Instagram" hesabında paylaşdığı fotodakı saat izləyicilərinin diqqətini çəkib. Hülya Avşarın həmin fotosuna yazılan şərhlərin çoxu bahalı saatla bağlı olub.**

**"Rolex" markasından olan qızıl saatın qiymətinin 56 min avro (1 milyon 90 min lirə) olduğu bildirilir.**

# 2023-cü ilin rəngi açıqlandı

Yeni qırmızı rəng süni intellektin köməyi ilə hazırlanıb




**"Pantone" şirkəti 2023-cü ilin rəngini açıqlayıb.**

**Gələn ilin rənginə "18-1750 Viva Magenta" adı verilib. İnstitutun fikrincə, bu, dünyanın keçdiyi çətin dövrdə onun ehtiyacı olan gücün və canlılığın simvoludur. Bu səbəbdən ilin rəngini elan edərkən tvitərdə "Qeyri-adi vaxt üçün qeyri-adi kölgə" sözləri yazılıb.**

**Yeni qırmızı rəng süni intellektin köməyi ilə hazırlanıb.**

**Xatırladaq ki, 2022-ci ilin rəngi bənövşəyi və qırmızının alt tonu olan mavi idi.**

***Qeyd edək ki, 1950-ci ildə Nyu-Yorkda qurulan "Pantone" şirkəti 2000-ci ildən bəri Panton Rəng İnstitutu vasitəsiylə ilin rəngini müəyyənləşdirir.***

# Vurduğu şillədən sonra ilk dəfə tədbirə qatıldı



**94-cü "Oskar" mükafatlandırma mərasimində Hollivud ulduzu Uill Smit aparıcı Kris Roka vurduğu şillədən sonra ilk dəfə tədbirə qatılıb.**

**Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, aktyor xanımıyla birlikdə rol aldığı "Emansipasiya" filminin premyerasına qatılıb. Gecədə onların övladları da işitirak edib.**

**Qeyd edək ki, Smit Krisə şilləni həyat yoldaşının alopesiya xəstəliyi (saçın pataloji tökülməsi) ilə bağlı zarafatından sonra vurmuşdu. Sosial mediada sürətlə yayılan görüntülərdən sonra aktyor həmkarından üzr istəmişdi.**



# Azərbaycanda xərçəng xəstələrinin sayı sürətlə artır

## Radioloq bu müayinələri vacib hesab edir

**Dünya alimləri bildirir ki, koronavirus pandemiyası başlayandan sonra ağciyər xərçəngi xəstələrinin sayı artıb. Ümumiyyətlə, pandemiya sonrası onkoloji partlayış yaşanır.**

Son 1 ildə icbari tibbi sığorta ilə bəzi müayinələr əlçatan olduğundan insanlar rentgen, MRT-dən (maqnit-rezonans tomoqrafiyası) keçir və bu müayinələr zamanı heç bir əlamət verməyən şişlər aşkarlanır. Bir ay ərzində Türkiyədə bir neçə məşhur simada ağciyər xərçənginin aşkarlanması da insanları narahat edir.

**Radioloq-həkim Aydın Əliyev Bakupost.az -a açıqlamasında rentgen vasitəsilə xərçəngin aşkar olunmasının mümkünlüyü barədə danışıb. O, rentgenlə ağciyərlərdə şişin görünə biləcəyini deyib.**

"Koronavirus pandemiyası dövründə və ondan sonra insanlar daha çox rentgen və KT (komputer tomoqrafiyasl) çəkdirdiyi üçün onların bir çoxunda gizli gedən onkoloji xəstəliklər üzə çıxdı. Bu o demək deyil ki, o, şişi koronavirus yaradıb. Bir şişin əmələ gəlib, bəlli bir ölçüyə çatması üçün müəyyən müddət, bəzən illər lazımdır".

**A. Əliyevin sözlərinə görə, ümumiyyətlə, onkoloji xəstələrin sayında kəskin artım var:**

"Bunu sırf pandemiya ilə əlaqələndirməzdim. Bir il əvvəl koronavirus keçirmiş bir kişi rentgenə gəldi, təsadüfən onda xərçəng şişi aşkar etdik. Rentgendə xərçəngi aşkar etmək üçün onun növləri, hansı toxumada, orqanda yerləşməsi, hansı tərəfdə olmasının əhəmiyyəti var. Ölçüsünə gəldikdə isə lokalizasiyasından asılıdır, bəzən ola bilər ki, rentgendə ağciyəri normal görək, amma orda gizlənmiş kiçik bir törəmə olsun.

Ağciyər sahəsinin rentgendə görünən yerlərində 5 mm-dən başlayaraq 1 sm-ə kimi kiçik törəmələri də görə bilərik. Amma ağciyər xərçənginin aşkar edilməsində qızıl standart KT müayinəsidir. Lakin problem ondadır ki, KT müayinəni skrininq profilaktik proqramına daxil etmək olmaz, çünki şüalanma dozası çoxdur. Ona görə də, döş qəfəsi orqanlarının rentgen müayinəsi profilaktik olaraq ən azı ildə 1 dəfə aparılmalıdır. Siqaret çəkənlər, xüsusən 40-50 yaşdan yuxarı kişilər üçün bu, vacibdir".

*(Davamı səh: 7-də)*

# Vitrinlərdə qalacaq...

1 il istifadə olunmayan telefonlar zibil olacaq



**Türkiyədən yeni qərar gəldi. Elektron rabitə şəbəkələrindən xidmət görməyən telefonların IMEI məlumatlarının söndürülməsi 7 ildən 1 ilə endirilir.**

Əsasnamə rəsmi mediada dərc olunduqdan sonra qüvvəyə minəcək. Telefon şirkətləri bu barədə istehlakçılara xəbərdarlıq ediblər.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, son bir neçə gündə cib telefonlarının şəxsiyyət məlumatlarının (IMEI) qeydiyyatı ilə bağlı Türkiyə Böyük Millət Məclisində yaradılan tənzimləmə ilə şəbəkə qəbul etməyən mobil telefonların inaktivasiya müddəti azaldılıb. Qaçaqmalçılıq və IMEI klonlaşdırılmasının qarşısını almaq üçün tənzimləmə rəsmi qəzetdə dərc edildikdən sonra qüvvəyə minəcək.

Mütəxəssislər isə vətəndaşlara istifadə etmədikləri telefonla bağlı xəbərdarlıq edərək, qanunun onlara mənfi təsir edəcəyini bildiriblər. Təxminən 18 ildir rabitə sektorunda operator olduğunu bildirən Şirin Göktimur qüvvəyə minəcək qanundan mənfi təsirlənəcəklərini ifadə edib. Vitrindəki telefonlar 1 il müddətinə satılmazsa və telefona siqnal gəlməzsə, qurban olacaqlarını ifadə edən Göktimur bildirib ki, bu o deməkdir ki, telefonların əlaqəsi kəsiləcək və zibil olacaq. İş yerində müxtəlif marka telefonların olduğunu deyən Göktimur 1-2 ildir bəzi məhsulları sata bilmədiklərini bildirib. O deyib ki, bu qanunla bir ilin sonunda hər bir ticarətçinin əlində satıla bilməyən 30-40 telefon olacaq. Göktimur istifadəçilərə istifadəsiz telefonu evdə saxlamamaları barədə xəbərdarlıq edərək, bu müddət ərzində telefonlarını qeydiyyatdan keçirməyi məsləhət görüb.

**Turan**

# Gündə bir yumurta bəs edər

Ürək sağlamlığına heç bir mənfi təsir göstərmir



**Amerikalı alimlər gündə bir yumurtanın ürək-damar xəstəlikləri riskini artırmadığını sübut ediblər.**

Lent.az-ın xarici mətbuata istinadən məlumatına görə, tədqiqat zamanı məlum olub ki, insanlar adətən həftədə 5 ədəd yumurta yeyirlər. Bu miqdarda yumurta miokard infarktı, ürəyin işemik xəstəliyi və insult riskini artırmır. Yumurta istehlakı ilə ürək-damar riski arasında əlaqə yalnız 2-ci tip diabeti olan insanlar üçün aşkar edilib. Orta hesabla, insanların çoxu gündə bir dənədən çox yumurta yemir. Səhər yeməyində iki yumurta yemək olar. Bundan əlavə, tədqiqatçılar 1,7 milyon insanın yumurta yemək vərdişlərini birlikdə araşdıran 28 Avropa, Amerika və Asiya tədqiqatının meta-analizini aparıblar. Bu tədqiqatların məlumatları da təsdiqləyir ki, gündə bir yumurta ürək sağlamlığına heç bir mənfi təsir göstərmir. Asiya tədqiqatlarında yumurta istehlakı ürək-damar xəstəlikləri riskinin müəyyən qədər azalması ilə əlaqələndirilib.